

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI VƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA 2016-2020-Cİ İLLƏR ÜZRƏ TƏRƏFDAŞLIQ ÇƏRÇİVƏSİ SƏNƏDİ

# İLLİK HESABAT
# 2020

# MÜNDƏRİCAT


**ÖN SÖZ** 3

**2020-Cİ İLDƏ ƏSAS NAİLİYYƏTLƏRİMİZ** 4

**BÖLMƏ 1:** AZƏRBAYCANDA ƏSAS İNKİŞAF TRENDLƏRİ-2020-Cİ İLİN XÜLASƏSİ 8

**BÖLMƏ 2:** BMT-NİN İNKİŞAF SİSTEMİNİN MİLLİ İNKİŞAF PRİORİTETLƏRİNƏ DƏSTƏYİ 13

COVID-19-a QARŞI CAVAB TƏDBİRLƏRİ 14

MÜNAQİŞƏDƏN ZƏRƏR ÇƏKMİŞ İCMALARA HUMANİTAR YARDIM TƏDBİRLƏRİ 21

**1-Cİ STRATEJİ PRİORİTET SAHƏ:** ŞAXƏLƏNDİRMƏNİN ARTIRILMASINI VƏ LAYİQLİ ƏMƏYİ DƏSTƏKLƏYƏN DAYANIQLI VƏ İNKLÜZİV İQTİSADİ İNKİŞAFIN TƏŞVİQİ 23

**2-Cİ STRATEJİ PRİORİTET SAHƏ:** İNSTITUSİONAL POTENSİALIN GÜCLƏNDİRİLMƏSİ VƏ EFFEKTİV DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ 31

**3-CÜ STRATEJİ PRİORİTET SAHƏ:** ƏTRAF MÜHİT SAHƏSİNDƏ İDARƏÇİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ, TƏHLÜKƏ VƏ FƏLAKƏTLƏRƏ QARŞI DAYANIQLILIĞIN GÜCLƏNDİRİLMƏSİ 44

2020-Cİ İLİN ÇAĞIRIŞLARI 49

**BÖLMƏ 3:** BMT BİRLİKDƏ DAHA SƏMƏRƏLİ VƏ DAHA EFFEKTİV İŞLƏYİR 50

**QOŞMALAR** 58

**QOŞMA 1:** MALİYYƏ İCMALI 58

**QOŞMA 2:** BMT TƏŞKİLATLARI VƏ TƏRƏFDAŞLARI 60



# ÖN SÖZ

2020-ci il – “2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi” Sənədinin yekun ilidir. Hökumət və digər milli tərəfdaşlarla, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları, elmi dairələr və özəl sektorla birgə səylərimizin nəticələrini əks etdirən dördüncü İllik hesabatı təqdim etməkdən məmnunluq hissi duyuram.

2020-ci il, COVID-19 pandemiyasının dünyanın hər yerində insanların sağlamlığı və yaşayışına göstərdiyi ağır təsirlərlə əlaqədar, çətin bir il olub. Azərbaycanda bu sosial-iqtisadi sınaq Dağlıq Qarabağ regionu və ətrafında hərbi əməliyyatların alovlanmasına görə daha da güclənib. Hər iki böhran BMT-ni və onun tərəfdaşlarını hökumətə və zərərçəkmiş əhali qruplarına dəstək olaraq, göstərilən səylərə və resurslara töhfə verməyə, böhran qiymətləndirməsi, böhrana hazırlıq, cavab tədbirləri və kommunikasiya üzrə potensialları gücləndirməyə sövq edib.

BMT-nin Azərbaycandakı fəaliyyəti yalnız böhranla bağlı cavab tədbirlərinin görülməsi ilə məhdudlaşmayıb. Biz, həmçinin, qeyri-neft sektorlarında bacarıqların gücləndirilməsi və məşğulluq imkanlarının artırılması, daha yaxşı siyasətlər və xidmətlər üçün potensialların gücləndirilməsi, insan hüquqları sahəsində beynəlxalq standartlara əməletmənin dəstəklənməsi, gender bərabərliyinin gücləndirilməsi, ictimai səhiyyə sistemlərinin gücləndirilməsi, müasir və dayanıqlı kənd təsərrüfatının təşviqi, habelə ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyət göstərmişik. Gördüyümüz tədbirlər və əldə etdiyimiz nəticələr “Əsas nailiyyətlərimiz” bölməsində və bütün hesabat boyunca təsvir edilib. 2020-ci ildə, bizim icra etdiyimiz proqramların ümumi dəyəri 26.9 milyon ABŞ dolları olub (5 illik icra müddətində ən yüksək göstərici). Bu məbləğin 45%-ni Azərbaycanın maliyyələşdirməsi ötən beş il ərzində BMT-nin bilik və səriştəsinə olan inam və etimad səviyyəsini əks etdirir.

Beş illik müddəti əhatə edən yeni “2021 - 2025-ci illər üçün BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə” sənədinin imzalanması ilə yeni mərhələ başlayır. Bu çərçivə Azərbaycanın DİM-lərin icrası istiqamətində irəliləyişini sürətləndirməyə və “Fəaliyyət Onilliyi” çərçivəsində götürdüyü öhdəlikləri yerinə yetirməsinə kömək etmək üçün hazırlanıb. Bu sənəd inklüziv artım, ictimai və sosial xidmətlərin göstərilməsi, ətraf mühitin mühafizəsi, gender bərabərliyinə malik cəmiyyətin qurulması sahələrində köklü dəyişikliklərə yönələn həlləri ön plana çəkir. Yeni çərçivə Hökumətin ölkənin 2030-cu ilədək gələcəyə baxış strategiyasını yenicə açıqladığı önəmli bir vaxta təsadüf edir və BMT bu sənədi dəstəkləməyə davam edəcək.

Azərbaycan Hökumətinə, tərəfdaşlarımıza, eləcə də öz heyətimiz və ekspertlərimizə 2020-ci ildəki fövqəladə şərtlər altında göstərdikləri qətiyyət və əzmkarlığa görə dərin təşəkkürümü bildirirəm. Sizin səyləriniz insan həyatlarını xilas etdi, ən həssas əhali qruplarını dəstəklədi və daha yaxşı bərpa üçün plan və siyasətlərin təməlini qoydu.

2021-ci il və ondan sonrakı dövrdə sizə davamlı uğurlar arzu edirəm.

**Qulam İshaqzai**
BMT-nin Rezident Əlaqələndiricisi

# 2020-Cİ İLDƏ ƏSAS NAİLİYYƏTLƏRİMİZ

**COVID-19-a** QARŞI CAVAB TƏDBİRLƏRİ

**01** 3,000-dən çox səhiyyə işçisi infeksiyanın profilaktikası və klinik halların idarə edilməsi sahəsində biliklərini artırıb

**02** 50,000 qoruyucu gözlük, 1,000 təmassız infraqırmızı termometr, 12,000 infraqırmızı termometr, 20 oksigen qatılaşdırıcı, 3 milyon maska və 1 milyon tibbi əlcək olmaqla, minlərlə fərdi qoruyucu və biotibbi avadanlıq istifadəyə verilib

**03** Böhranın təsirini qiymətləndirmək üçün hərtərəfli sosial-iqtisadi qiymətləndirmə aparılıb

**04** Ölkəyə COVID-19 pandemiyasına qarşı cavab tədbirlərinin idarə edilməsi istiqamətində dəstək olmaq üçün Ölkə üzrə Hazırlıq və Müdaxilə Tədbirləri Planı tərtib edilib

**05** Pandemiya ilə mübarizədə (bot-lar və mobil tətbiqlər də daxil olmaqla) beş rəqəmsal həll təqdim edilib

**06** Rəqəmsal platformalar və televiziya kanalları vasitəsilə, eləcə də ictimaiyyətin iştirakı ilə "Evdə qal, həyatları xilas et", "Təmiz əllər" və "Evdə həyat var" kimi kampaniyalar vasitəsi ilə əhaliyə yoluxma səbəbləri və yoluxmadan qorunma metodları barədə fəal şəkildə məlumatlar təqdim edilib

**07** 1 milyondan çox insan COVID-19 xəstəliyinin riskləri barədə mətbuat, sosial şəbəkələr və ictimaiyyətin iştirakı vasitəsilə məlumatlandırılıb

## HUMANİTAR YARDIM

**01** Münaqişənin təsirinə məruz qalmış ərazilərdə BMT-nin qurumlararası ehtiyacların çevik qiymətləndirməsi aparılıb

**02** 1,070 uşağa münaqişənin birbaşa və uzunmüddətli təsirləri ilə mübarizə aparmaq məqsədi ilə yardım göstərilib və məsləhətlər verilib

**03** Yarısı uşaqlar olmaqla, 87,000 nəfər maarifləndirmə tədbirləri vasitəsilə mina və partlamamış hərbi sursat əşyalarını artıq tanıya bilir

**04** Humanitar yardım məqsədi ilə 3,666,000 ABŞ dolları məbləğində yardım səfərbər edilib

## YAŞAYIŞ SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ VƏ KƏND TƏSƏRRÜFATINA DƏSTƏYİN GÖSTƏRİLMƏSİ

**01** 227 qadın və əlilliyi olan 51 şəxs öz biznesinə başlayıb

**02** 250 şirkət rəqəmsal xidmətlərin göstərilməsinə cəlb edilib

**03** Qaçqın və sığınacaq axtaran insanlar artıq qanun əsasında məşğulluğa cəlb edilə bilər

**04** 3,000 hektardan çox torpaq sahəsində təbii genetik ehtiyatları qorumaq məqsədi ilə yerli toxum sortları əkilib

**05** 32,000 hektardan çox ərazidə çəyirtkə ilə mübarizə tədbirləri aparılıb

## İNSAN HÜQUQLARI

**01** BMT-nin Müqavilə orqanlarına 29 alternativ hesabat təqdim edilib

**02** Məişət zorakılığı və selektiv abortların qarşısının alınması məqsədi ilə Milli Fəaliyyət Planları qüvvəyə minib

**03** Prezident Uşaqlara dair Strategiyanı (2020-2030-cu illər üzrə) və onun Fəaliyyət Planını (2020-2025-ci illər üzrə) təsdiq edib

**04** Gender əsaslı zorakılıqla bağlı qaynar xətt "860" yaradılıb və bu xətt vasitəsilə gender əsaslı zorakılıq halları qeydə alınır və zərərçəkmiş şəxslərə psixoloji dəstək və göndəriş təklif edilir

**05** Qabaqcıl texnologiyalardan istifadə edilməklə, Ombudsman İdarəsində yeni, uşaqlara rahat Çağrı Mərkəzi yaradılıb

**06** 3,296 nəfər, o cümlədən 1,890 qadın, 1,482 məcburi köçkün və 208 əlilliyi olan şəxs pulsuz hüquqi xidmətdən faydalanıb

## ÖMÜRBOYU TƏHSİL

**01** İnklüziv təhsil üzrə müəllimlərin təlim proqramı artıq rəsmi kurikulumun bir hissəsinə çevrilib və 10,000-dən çox ibtidai sinif müəllimi, 320 universitet müəllimi və pedaqoji universitetlərin 1,300 tələbəsi inklüziv təhsil yanaşmaları sahəsində təlimlərdə iştirak edib

**02** 3-4 yaş arası 9,208 uşağı əhatə edən 180 yeni icma əsaslı erkən təlim mərkəzi yaradılıb

**03** Valideynlər üçün maarifləndirmə portalı (www.ilk5il.az) və mobil telefon tətbiqi (ilk5il) yaradılıb və təxminən 160,000 məktəbəqədər uşaq və 100,000 valideyn ev şəraitində erkən təlim bələdçisindən, habelə televiziya və rəqəmsal platformalar vasitəsilə çatdırılan valideynləri maarifləndirmə resurslarından faydalanıb

**04** Gənclər Evi və Karyera İnkişaf Mərkəzləri şəbəkəsinin bir hissəsi kimi 8,000 gənc sahibkarlıq və kommunikasiya bacarıqları sahəsində təlimlərdə iştirak edib

**05** 30,345 nəfər yaşlı insan fəal yaşlanma tədbirlərinə cəlb edilib

# ƏTRAF MÜHİT VƏ İQLİM DƏYİŞİKLİYİ İLƏ BAĞLI HAZIRLANMIŞ HESABATLAR VƏ YOL XƏRİTƏLƏRİ

**01** İqlim Dəyişikliyi üzrə BMT-nin Çərçivə Konvensiyasına Dördüncü Milli Kommunikasiya hesabatı

**02** BMT-nin Avropa İqtisadi Komissiyasının "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə Konvensiya"sı (Su haqqında protokol) çərçivəsi altında milli hesabat

**03** Torpaqdan İstifadə, Torpaqdan istifadənin dəyişdirilməsi və Meşə Təsərrüfatı (LULUCF) sektorlarında təyin edilmiş milli töhfələr barədə müfəssəl hesabat

**04** Kəhrizlərin (yeraltı su sistemi) bərpası üçün birinci milli baş plan

**05** Aşağı Emissiya üzrə İnkişaf Strategiyası üçün yol xəritəsi

## QLOBAL MƏCƏLLƏLƏR, STANDART VƏ TƏCRÜBƏLƏR:

**01** Milli ərzaq təhlükəsizliyi normalarını beynəlxalq standart və təcrübə normaları ilə uyğunlaşdırmaq məqsədi ilə beynəlxalq qida standartları və qaydaları külliyatı (Codex Alimentarius) tətbiq edilib

**02** Landşaftın bərpası, meşələrin qırılması və deqradasiyası nəticəsində yaranan tullantılar kimi spesifik monitorinq məqsədləri üzrə məlumatlar toplamaq üçün "CollectEarth" texnologiyaları tətbiq edilib

**03** Ölkənin Milli Meşə İnventarının tərtibatı üçün Azərbaycan üzrə Qlobal Meşə Ehtiyatlarının Qiymətləndirilməsi (QMEQ) aparılıb

**04** Yerli ərazi və məhsulları təşviq etməkdə icmalara kömək etmək məqsədi ilə ölkənin şimal-qərb zonasında Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemi (QƏAİS) təqdim edilib

**05** Azərbaycanın Turizm və Menecment Universiteti BMT-nin Turizm Təşkilatından rəsmi olaraq TedQual Keyfiyyət Sertifikatını əldə edib. Bu sertifikat turizm təhsilində minimum keyfiyyət standartlarını təyin edir

**06** Sərhəd keçid məntəqələrində daha yaxşı sərhəd təhlükəsizliyi və kəşfiyyatını təmin etməyə imkan verən qabaqcıl sərnişin məlumat sistemləri (API / PNR) tətbiq olunub.

**07** Ölkə, sərhəd keçid məntəqələrində fiziki təması minimuma endirən "eTIR" beynəlxalq sisteminə qoşulub

# **BÖLMƏ 1:** AZƏRBAYCANDA ƏSAS İNKİŞAF TRENDLƏRİ 2020-Cİ İLİN XÜLASƏSİ




Azərbaycanın memarlıq rəmzlərindən biri olan Heydər Əliyev Mərkəzi Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə həmrəylik əlaməti olaraq, onun bayrağını əks etdirir.

2020-ci il fevral ayının 9-da keçirilən növbədənkənar parlament seçkiləri ilə başladı. Bu seçkilər yeni siyasi fiqurlar, vətəndaş cəmiyyəti üzvləri və gənc fəalların iştirakı ilə baş tutdu.

COVID-19 xəstəliyinə ilk yoluxma halı 28 fevral tarixində qeydə alındı və ilin sonuna qədər bu cür yoluxma hallarının sayı 217,636-ya çatdı. Dövlət dərhal sərhəddə əlavə yoxlamaların keçirilməsi, hərəkətin məhdudlaşdırılması, risk məlumatlarının ötürülməsi üçün mediada kampaniyaların keçirilməsi və xəstəxanaların COVID-19 pasientlərinin müalicəsi üçün ayrılması kimi bir sıra effektiv tədbirlərin tətbiqinə başladı. Eyni zamanda, zəruri səhiyyə xidmətlərinin davamlılığı və səhiyyə müəssisələrində növbəliliyi təmin etmək, eləcə də böhranın digər xəstəliklərin müalicəsinə dolayı təsirinin qarşısını almaq üçün müəyyən tədbirlər görüldü.




*Ölkə icmalı, ÜST, 7 mart, 2020-ci il, Bax*

Yoluxma nisbətinin artması ilə Hökumət, yoluxmanın qarşısını almaq üçün həyati vacib olmayan iş yerləri və təhsil müəssisələrinin bağlanması da daxil olmaqla sərt karantin tədbirlərinin tətbiqinə başladı. Karantin isə öz növbəsində inkişafa əngəl törədərək, işsizliyin səviyyəsini artırdı, vacib tibbi və sosial xidmətlərin göstərilməsində fasilələrin yaranmasına səbəb oldu. 2020-ci ildə neftin qlobal səviyyədə qiymətində enişlərin olması da ölkənin Ümümdaxili Məhsul göstəricisində (ÜDM) keçən il ilə müqayisədə 4,3 faizə kimi azalmaya gətirib çıxardı. [1] Pandemiyanın tibbi və iqtisadi fəsadları ilə mübarizə aparmaq üçün Hökumət 2,5 milyard ABŞ dollarından yüksək məbləğdə[2] (ÜDM-in 3 faizindən çox) olan sosial-iqtisadi və maliyyə dəstəyi paketi təqdim etdi. Zəif iqtisadi fəaliyyət, aşağı neft qiymətləri və yüksək dövlət xərclərinin birləşməsi böyük maliyyə kəsirinə səbəb oldu. Azərbaycan da beynəlxalq ictimaiyyətlə həmrəylik nümayiş etdirərək ÜST-ün COVID-lə mübarizə fonduna 10 milyon ABŞ dolları məbləğində yardım ayırdı. Qoşulmama Hərəkatının Sədri kimi Azərbaycanın təşəbbüsü ilə 3-4 dekabr, 2020-ci il tarixlərində BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunmuş xüsusi sessiyası keçirildi.

[1] İqtisadiyyat Nazirliyi, "2020-ci ildə ölkədə makroiqtisadi inkişaf", bax

[2] "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Məclisinin COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasına müraciət etdi", 4 dekabr, 2020-ci il, bax

Biznes, vergi və gömrük sektorlarında aparılan davamlı islahatlar beynəlxalq iqtisadi reytinqlərdə yüksək göstəricilərdə özünü göstərdi. Məsələn, Azərbaycan Dünya Bankının 2020-ci il üzrə "Doing business" hesabatında 34,[3] Qlobal Rəqabətlilik İndeksində isə 58-ci[4] sırada yerləşib. Bu nəticələrə öz töhfəsini verən əsas amillər sırasına əmlak qeydiyyatının sadələşdirilməsi, kreditlərə çıxış imkanlarının gücləndirilməsi, azlıq təşkil edən sərmayədarların qorunması və müqavilələrin daha yaxşı icrası daxildir.

2020-ci il mart ayının əvvəlindən etibarən məktəbəqədər təhsil müəssisələri də daxil olmaqla təhsil müəssisələrinin bağlanması bütün yaşları əhatə edən təhsilalanlar üçün təlim və sosial bacarıqlar baxımından mənfi təsirlərlə yadda qaldı. Təhsilin davamlı və dayanıqlı olmasını təmin etmək üçün Təhsil Nazirliyi tərəfindən fərqli təşəbbüslər irəli sürülsə də, rəqəmsal bərabərsizliyin olması texnologiyaya çıxış məhdudiyyəti olan təhsilalanlar üçün təlimin effektivliyini azaltdı.

COVID-19 pandemiyasının davam etməsinə rəğmən Hökumətin sosial müdafiə sahəsində islahatları nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Sosial Xidmətlər Agentliyi yaradıldı. Bu, Azərbaycanda əhalinin ən həssas təbəqələrinə dəstək üçün sosial xidmət göstərən işçi qüvvəsinin təkmilləşməsi kimi də nəzərə alınmalıdır.

İnsan inkişafı baxımından Azərbaycan 189 ölkə arasında 88-ci yerdə sıralanaraq, 0,756 İnsan İnkişafı İndeksinə (İİİ) bərabər olmaqla, yüksək kateqoriyada öz yerini qoruya bilib. Buna baxmayaraq, bərabərsizlik baxımından bu göstərici 9,5 faiz azalmaqla, 0,684-ə düşüb. Sosial nəticələri təkmilləşdirmək sahəsində göstərilən səylərə baxmayaraq, bərabərsizlik halları davam edib. Qadınlar, uşaqlar, gənclər, əlilliyi olan şəxslər, yaşlı insanlar, qaçqınlar, məcburi köçkünlər, qeyri-formal məşğulluğa cəlbolunanlar və kəndyerlərinin əhalisi bəzi sosial xidmətlərə çıxış baxımından ən geridə qalan fərdlər kimi qeyd olunub[5]. 2020-ci il üzrə İİH-də Gender Bərabərsizliyi İndeksi 0,323 olmaqla, ölkə 162 ölkə arasında 73-cü yerdə qərarlaşıb. Bu sahədə müəyyən təkmilləşmələr nəzərə çarpsa da, qadınlar yenə də uşaqların cinsə görə nisbət pozğunluğu (100 qıza 114 oğlan), gender əsaslı zorakılıq (məişət zorakılığının ümumi qurbanlarının 76 faizi), zəif təmsil olunma (parlamentdəki yerlərin 18,2 faizi, sahibkarların 21,7 faizi), aşağı əmək haqları (663 AZN ilə müqayisədə 335 AZN), erkən nikah (15-19 yaş arası hər 1000 qadına 48 erkən yaşda doğum göstəricisi) və ayrı-seçkiliyin digər formaları baxımından əsaslı şəkildə bərabərsizlik halları ilə qarşılaşıblar. [6,7]

[3] Dünya Bankı "Doing Business" Hesabatı 2020-ci il, bax
[4] Ümumdünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı", bax
[5] Ümumi Ölkə Təhlili, 2020-ci il
[6] BMT-nin İnkişaf Proqramı (BMTİP), "İnsan İnkişafı üzrə Hesabat, 2020-ci il", bax
[7] Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Parlamentə 30.12.2020-ci il tarixli hesabatı, bax



BMT-nin Əhali Fondu (UNFPA) rəhbərliyi ilə aparılan uzunmüddətli təşviqat və texniki dəstəyin nəticəsi olaraq, Azərbaycan Hökuməti gender əsaslı cinsi seçimin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün fəaliyyət planını təsdiq edib. Bu sənəd yenidoğulanlar arasında oğlan uşaqlarının davamlı olaraq daha yüksək olması səbəbilə doğulanlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasının (bioloji norma 105-107 oğlan/100 qız olduğu halda, real göstərici 114 oğlan/100 qız) aradan qaldırılmasına yönəlib.

**Foto: BMT Azərbaycan arxivləri**

Qadın və kişilərin həyatına COVID-19 xəstəliyinin təsirinin sürətli gender qiymətləndirməsi[8] karantin dövründə qadınlara qarşı məişət zorakılığı hallarının artdığını və məhdudiyyət tədbirlərinin qadınlar üzərində ödənişsiz ev işləri ilə bağlı yükü daha da çoxaltdığını göstərdi. Dövlətin təqdim etdiyi məlumatlarda da görünən odur ki, tibbi xidmətlərin ön sıralarında çalışan və ən çox yoluxmaya məruz qalan insanların böyük əksəriyyəti qadınlar olub (2018-ci ildə səhiyyə və sosial xidmətlər sahəsində 77,6 faiz). Hökumət bu cür çağırışlara cavab olaraq 2020-ci ildə məişət zorakılığı (2020-2023-cü illər), gender əsaslı cinsi seçimin qarşısının alınması (2020-2025-ci illər) və insan alveri (2020-2024-cü illər) ilə mübarizə sahəsində yeni fəaliyyət planları təqdim edib.

Azərbaycan həm də ekologiya sahəsində də çətinliklərlə üzləşib. Bütövlükdə Cənubi Qafqazın ekosistemində vacib rola malik olan Kür çayının suyunun kəskin azalması bunlardan biri hesab edilə bilər. Çayın deltasının yuxarı hissələrində 2020-ci ilin iyun ayında müəyyən edilmiş çox yüksək duzluluq (10,6) onu göstərdi ki, Xəzər dənizinin duzlu suyu (orta göstəricisi 16) artıq təxminən 66 km məsafədə çaya daxil olub. Bunun səbəbləri kimi kənd təsərrüfatı məqsədləri üçün Kür çayının yuxarı axınından yüksək ölçüdə suyun çəkilməsi ola bilər ki, bu da çayın aşağı axınından əhəmiyyətli dərəcədə suyun axının azalmasına gətirib çıxarıb və güclü külək və dalğalar zamanı dəniz suyunun deltadan kənar içəriyə doğru hərəkət etməsinə təkan verib. Aprel ayında 2020-2022-ci illər ərzində su ehtiyatlarından səmərəli istifadə ilə bağlı Prezidentin imzaladığı fəaliyyət planının məqsədi su ehtiyatlarını artırmaq və istehlakçılara içməli və suvarma suyun təchizatını yaxşılaşdırmaqdır. Eyni zamanda Kür çayında suyun səviyyəsini bərpa proqramını hazırlamaq məqsədi ilə xüsusi komissiya yaradılıb. 15 mikrona kimi plastik torbalardan istifadənin qadağan edilməsi də ətraf mühitin qorunması istiqamətində digər müsbət tədbirlərdən biri hesab edilə bilər.

Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında 2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixləri aralığında davam edən münaqişə çox sayda hərbi və mülki itkilər, həmçinin infrastruktur və ekosistemə dəymiş zərərlə nəticələndi. Müharibə 2020-ci ilin 9 noyabr tarixində Azərbaycan, Ermənistan və Rusiyanın rəhbərlərinin imzaladığı üçtərəfli bəyanatla tamamlanıb. BMT keçmiş təmas xətti boyunca son döyüşlər nəticəsində müvəqqəti köçkün düşmüş 40,000 nəfər əhalinin bir qisminə humanitar yardım edib. Yenidənqurma işlərinə və köçkün əhalinin geri qaytarılmasına imkan yaratmaq üçün 2020-ci ilin sonundan etibarən minalardan təmizləmə əməliyyatları ilə birlikdə erkən bərpa və sülh quruculuğu qiymətləndirmə (RPBA) prosesi başlanıb.

[8] UNFPA, Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu “COVID-19-un qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirilməsi”, 2020-ci il, bax



# **BÖLMƏ 2:** BMT-NİN İNKİŞAF SiSTEMİNİN MİLLİ İNKİŞAF PRİORİTETLƏRİNƏ DƏSTƏYİ

REACT-C19 proqramının həkimləri Bakı şəhərindəki Yeni Klinikada COVID-19 xəstələri üçün yaradılmış müvəqqəti tibb müəssisəsində "qırmızı zonada" yerli həkimlərlə birlikdə təlim zamanı

# COVID-19-a QARŞI CAVAB TƏDBİRLƏRİ

### *Səhiyyə sisteminin cavab tədbirləri*

Pandemiyaya cavab tədbirlərini dəstəkləmək məqsədi ilə BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq edib. Artıq mart ayından etibarən Hökumətin müraciəti əsasında hazırlıq və cavab tədbirləri potensialı baxımından tövsiyələrin təmin edilməsi üçün ÜST-ün ekspertlərdən ibarət komandası ölkəyə səfər edib. Missiyanın gəlişi ilə 2020-ci ilin aprel ayında REACT-C19 (COVID-19-a qarşı mübarizədə Əsas Bacarıqların Sürətli Gücləndirilməsi) layihəsinin başlanğıcı üçün zəmin qoyulub. Bu layihə COVID-19 pasientlərini müalicə etmək baxımından hazırlığı artırmaq, o cümlədən tibb işçiləri üçün təhlükəsiz mühit yaratmaq məqsədi ilə üç ay ərzində 12 xəstəxananın potensialını gücləndirməyə kömək edib. REACT-C19 layihəsinin nəticəsi kimi ÜST və BMT Uşaq Fondunun (UNİCEF) rəhbərliyi ilə icra edilən PROACT Proqramı (Proact Qayğı və Proact Təlimi) vacib tibbi xidmətləri göstərmək üçün dayanıqlı sistem və səriştələrin formalaşmasını dəstəkləyib. İnfeksiyanın qarşısının alınması ilə infeksiyaya nəzarət (İPC), əlaqələndirmə, kommunikasiya, xəstəlik hallarının təyin edilməsi, testlərin aparılması və epidemioloji araşdırmalar daxil olmaqla, ölkə səviyyəsində cavab tədbirlərini izləmək və ÜST standartları ilə uyğunluğu artırmaq məqsədilə ardıcıl qiymətləndirmələr aparılıb. BMT qurumları Hökumətə geniş dəstək tədbirləri çərçivəsində həm də COVID-19-a yoluxma hallarının qarşısının alınması, klinik halların idarə edilməsi (ÜST), habelə ana və uşaqların sağlamlığı (UNICEF) sahəsində laboratoriya işçiləri də daxil olmaqla, 3,000-dən çox səhiyyə işçisi üçün təlimlər təşkil edib.

Bununla yanaşı, BMT qurumları ön sıralarda çalışan səhiyyə işçilərinin təhlükəsizliyini qorumaq və xəstəxanaların potensialını gücləndirmək məqsədi ilə Hökumətə fərdi mühafizə və biotibbi avadanlıqlar da təqdim edib: bu avadanlıqlara 50,000 qoruyucu gözlük və 1,000 ədəd təmassız infraqırmızı termometr (BMT İnkişaf Proqramı (BMTİP)), Təhsil Nazirliyinin müraciəti qarşılığında 4,411 ümumtəhsil müəssisəsi və 16 xüsusi və internat məktəbin hər biri üçün 12,000 ədəd infraqırmızı termometr, 20 oksigen konsentratoru, pulsoksimetr və əlaqədar avadanlıqlar (UNICEF), 3 milyon maska, 1 milyon müayinə əlcəyi və digər fərdi mühafizə vasitələri (ÜST) daxildir.

### *Sosial-iqtisadi cavab tədbirləri*

Böhranın aparıcı sektorlara göstərdiyi təsiri qiymətləndirmək və səmərəli bərpa strategiyası formalaşdırmaq üçün lazım olan dəlil bazasını təmin etmək məqsədi ilə BMT və Hökumət arasında müştərək şəkildə müfəssəl sosial-iqtisadi qiymətləndirmə aparılıb. COVID-19 xəstəliyinin insanların və ailələrin rifahına təsirini monitorinq etmək və qərarvermə, proqramlaşdırma, planlaşdırma və monitorinq tədbirlərini dəstəkləmək üçün müvafiq maraqlı tərəflərin iştirakı ilə digər tematik qiymətləndirmə və təhlillər həyata keçirilib.

**01** COVID-19 pandemiyasının özəl sektor, əmək bazarı və elektron idarəçiliyə təsiri ilə bağlı üç qiymətləndirmə (BMTİP)

**02** Azərbaycanda COVID-19 pandemiyasının qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirməsi (UNFPA, Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu (UN Women))

**03** COVID-19 pandemiyası çərçivəsində Qida Təchizatı Zənciri ilə bağlı sürətli sorğu (Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO))

**04** Əsasən pandemiyaya cavab olaraq ailələrin məlumatlılığı, münasibət və davranışları barədə məsələləri əhatə edən və 6,500 nəfər arasında iki həftədən bir keçirilən iki telefon sorğusu (UNICEF)

**05** COVID-19 pandemiyası ilə bağlı bilik və davranışlar, o cümlədən peyvəndləmə barədə fikirlər və hazırlıq barədə məlumat əldə etmək üçün 2,000 respondent arasında iki müfəssəl sorğu (UNICEF, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, ÜST)

**06** Pandemiyaya cavab tədbirləri, o cümlədən riskin qavranılması və etibarlı məlumat mənbələrinə ictimai münasibətin öyrənilməsi üzrə davranış göstəricilərinin araşdırılması (ÜST)

**07** COVID-19 pandemiyası ətrafında aparılan onlayn müzakirələri və saxta xəbər və şayiələr daxil olmaqla karantin tədbirləri barədə məlumatları qiymətləndirmək və təhlil etmək üçün sosial dinləmə paneli: təxminən hər həftə 20,000 sosial şəbəkə postu nəzərdən keçirilib (UNICEF)

Bu qiymətləndirmələr nəticəsində aşkar edilmiş faktlara və Hökumətlə yaxın məsləhətləşmələrə əsaslanaraq, UNCT-nin COVID-19 pandemiyası ilə bağlı cavab tədbirlərinin sistemli, əlaqələndirilmiş və səmərəli olmasını təmin etmək üçün ÜST-ün rəhbərliyi altında Ölkənin Hazırlıq və Cavab Tədbirləri planı tərtib edilib.

***BMT qurumları COVID-19 böhranı zamanı cəmiyyətin ən həssas seqmentlərinə dəstək göstərib:***

Ehtiyacı olan 510 ailə əsas qida yardımı və gigiyena ləvazimatları əldə edib (BMTİP)

Səyahət məhdudiyyətləri səbəbindən Azərbaycanda qalmış 339 nəfər üçüncü ölkə vətəndaşı müraciət əsasında mühafizə və yardımla təmin edilib (Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT))

448 qaçqın və sığınacaq axtaran ailə sosial yardımdan faydalanıb və üç dəfə təcili nağd pul yardımı əldə edib (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK))

9 rayonun ərazisində 800-dən çox qadın və onların ailələrinə onlayn psixoterapiya dəstəyi göstərilib (BMTİP və UN Women)

Karantin dövründə 16,000-dən çox valideynə qidalanma ilə bağlı onlayn məsləhətlər verilib, 210,000-dən çox insan isə uşaqların ev şəraitində erkən inkişafı ilə bağlı praktiki məlumatlarla təmin edilib (UNICEF)

Üç rayonda 1,275 uşaq və ailə üçün sosial dəstək təmin edilib, o cümlədən onlara mümkün sosial yardımlarla bağlı məsləhətlər verilib, stress və ev daxilində potensial zorakılıq hallarının əlamətləri ilə bağlı monitorinq aparılıb (UNICEF)

### *Risklər barədə məlumatlandırma*

UNCT eyni zamanda rəqəmsal platformalar, televiziya və ictimaiyyətin iştirakı ilə əhalini yoluxmanın səbəbləri və qorunma metodları barədə məlumatlandırmaq üçün dərhal diqqətini risk kommunikasiyasına yönəldib. Profilaktik mesajların cəmiyyətin hər bir fərdinə çatması və əhatə dairəsini genişləndirmək üçün Hökumət, vətəndaş cəmiyyəti, kütləvi informasiya vasitələri və influenserlərlə geniş əməkdaşlıq şəklində "Evdə qal, həyatları xilas et", "Təmiz əllər", "Evdə həyat var" kimi müştərək maarifləndirmə kampaniyaları aparılıb. Gənc auditoriyalar üçün münasib olan COVID-19 pandemiyası ilə bağlı profilaktik mesajların tərtibatı, hazırlanması və yayılmasında gənclər fəal şəkildə iştirak ediblər. UNICEF, doqquz sayda Məlumatlandırma, Maarifləndirmə və Kommunikasiya (MTK) materialı hazırlayıb və 300,000-ə yaxın nüsxə ölkə ərazisində paylanılıb.




Könüllülər UNICEF tərəfindən ailələrə və uşaqlara dəstək olmaq üçün risklər barədə maarifləndirici materialları bölgələrdəki həssas əhali qrupları arasında paylayır. Bu materiallar COVID-19 pandemiyası dövründə valideynlər üçün tövsiyələr, psixoloji məsləhətlər və profilaktika ilə bağlı məlumatları əks etdirir.

### *Təhsil*

Məktəblərin ilin əksər hissəsində bağlı olduğunu nəzərə alaraq, UNCT bu bağlanmanın təlim və təhsilə çıxış imkanlarına qaçılmaz təsirini azaltmaq istiqamətində Hökumətlə birgə çalışıb. UNICEF məsafədən təlim və keyfiyyətli distant təhsil sahəsində Təhsil Nazirliyinə məsləhətlər verib. Bundan başqa, məktəblərin gələcəkdə yenidən açılması ilə bağlı yol xəritəsinin hazırlanması və sinif otaqlarına mümkün qayıdışdan əvvəl uşaqların psixoloji və sosial dəstəklə təmin edilməsi sahəsində də Təhsil Nazirliyinə dəstək göstərilib. BMTQAK qaçqın və sığınacaq axtaran uşaqların onlayn təhsil alması üçün milli məlumat bazasında qeydiyyatdan keçmələrinə kömək edib, onların arasında 378 nəfərə bu məqsədlə tablet və internet paketi təqdim edilib.

***Səhiyyə işçiləri və ictimaiyyətə pandemiyanın öhdəsindən gəlməkdə kömək etmək məqsədi ilə BMTİP bir çox sayda innovativ rəqəmsal həllər təqdim edib:***




Şəfa koronavirus məlumat botu simptomları olan insanlara nə etmək lazım olduğunu bildirir. Bot tibbi qurumlara 3,000-dən çox sorğunun onlayn cavablandırılmasına kömək edib və bununla da heyətin bu istiqamətdə iş yükü azalıb və tibb işçilərinin kritik tibbi yardıma ehtiyacı olan xəstələrə diqqət ayırmasına şərait yaranıb.

E-courses.az platforması tibb işçilərini pulsuz onlayn təlim kursları və sertifikat proqramları ilə təmin edir. Platformada hazırda infeksiyanın profilaktikası, COVID-19 xəstələrinin diaqnostikası və müalicəsi və digər kəskin yoluxucu respirator xəstəliklər daxil olmaqla, 55-dən çox kurs təklif edilir. 500-dən çox tibb işçisi kurslara yazılıb.






COVID-19 xəstəliyinin diaqnostikası və müalicəsi üçün hazırlanmış **MD Reference** mobil tətbiqi tibb işçilərinə ən son araşdırmalar əsasında klinik qərar verməyə kömək edir. 750 nəfərdən çox tibb işçisi müntəzəm olaraq bu platformadan istifadə edir.

**Video Doktor** tətbiqi məsafədən tibbi konsultasiyaların aparılmasına imkan verir və tibb işçiləri və pasientlər arasında yaxın təmasın azalmasına kömək edir. Bu proqram 31 həkim və 131 pasienti əhatə etməklə Bakının 15 poliklinikasında işə salınıb.







**WhatsApp bot** vasitəsilə ictimaiyyətin verdiyi suallar çevik, etibarlı və rəsmi təsdiq edilmiş məlumatlar əsasında həftənin bütün günləri, 24 saat ərzində cavablandırılır. İctimaiyyətin ünvanlandığı 200,000-dən çox sual artıq cavablandırılıb.

**#Tekkieheroes** virtual hakatondur və pandemiyanın təsirini aradan qaldırmaq və yoluxma riskini azaltmaq üçün yerli təcrübəni tətbiq etmək və yenilikçi fikirləri səfərbər etmək üçün 40-dan çox ölkədən 600 namizədi əhatə edib.




*Pandemiya dövründə vacib səhiyyə xidmətlərinin dayandırıldığı bir zamanda ana və uşaqların sağlamlığı və qidalanması barədə məlumat, bilik və məsləhətlərin verilməsi kimi dəstəyi təmin etmək üçün UNICEF həm də səhiyyə ekspertləri ilə birgə www.eudi.az rəqəmsal platformasının yaradılmasına dəstək göstərib.*



BMT-nin müxtəlif təşkilatlarının texniki ekspertlərindən ibarət qurumlararası əlaqələndirilmiş qiymətləndirmə missiyası Azərbaycanın münaqişədən təsirlənmiş bölgələrinə - müvəqqəti məcburi köçkünlərin məskunlaşdığı Bərdə, Ağdam və Ağcabədi rayonlarına və münaqişədən zərər çəkmiş digər icmalara dörd günlük səfər həyata keçirib.

# MÜNAQİŞƏDƏN ZƏRƏR ÇƏKMİŞ İCMALARA HUMANİTAR YARDIM TƏDBİRLƏRİ

Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında münaqişə ilə bağlı UNCT-nin humanitar cavab tədbirləri keçmiş təmas xəttinə yaxın və münaqişədən zərər çəkmiş ərazilərdə 2020-ci ilin noyabr ayında BMT-nin qurumlararası ehtiyacların çevik qiymətləndirməsindən əldə edilmiş məlumatlar əsasında hazırlanıb. BMT qurumları tərəfindən sektorlar üzrə qiymətləndirmələr, o cümlədən vətəndaş cəmiyyəti üzvləri ilə qarşılıqlı münasibət və Hökumət tərəfdaşları ilə iki həftədən bir keçirilən məsləhətləşmələrdən istifadə edərək, milli prioritet və tələblər müəyyən edilib. Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi və Sülh və İnkişaf Məsələləri üzrə heyətin dəstəyi ilə UNCT müntəzəm olaraq münaqişədən zərər çəkmiş insanların ehtiyaclarını, münaqişə ərzində və münaqişədən sonra dəyişən dinamikaları izləyib və əldə edilmiş məlumat və təhlilləri əhalinin ən həssas qruplarını əhatə etmək üçün düzgün qərarların verilməsi və ünvanlı müdaxilələrin prioritetləşdirilməsi baxımından BMT-nin Baş Qərargahı və inkişaf tərəfdaşları ilə bölüşüb. ÜST tərəfindən səhiyyə müəssisələrində səhiyyə ilə bağlı ehtiyacların hərtərəfli qiymətləndirilməsi və münaqişədən zərər çəkmiş ərazilərdə psixi sağlamlıq/psixoloji və sosial tədbirlərin çevik qiymətləndirilməsi ilə paralel şəkildə BMTİP iqtisadi imkanlar, təhsil, ictimai iştirak və sosial birlik baxımından məcburi köçkünlərin ehtiyaclarını araşdırmaq üçün başqa bir qiymətləndirmə tədbiri həyata keçirib. UNICEF Təhsil Nazirliyi ilə birgə zərərçəkmiş icmalarda münaqişənin təhsilə təsirini qiymətləndirməyə başlayıb.

BMTİP-in qlobal Böhran Riski Panelində Azərbaycan üçün regional Sülh və İnkişaf məsələləri üzrə komanda tərəfindən yaradılmış ölkə profili böhranla bağlı risklərin daha səmərəli monitorinqi, qiymətləndirilməsi və başa düşülməsinə imkan verib. Hökumətin müraciəti əsasında BMTİP/UNMAS-ın (BMT-nin Minalardan Təmizləmə Xidməti) birgə Humanitar Minatəmizləmə Missiyası beş geri qaytarılmış rayonda (Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli və Ağdam) və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) Horadiz və Göygöldə yerləşən iki regional əməliyyat bazasında qiymətləndirmələr apararaq, onlara müvafiq məsləhətlər veriblər. ANAMA ilə tərəfdaşlıq çərçivəsində UNICEF də yarısı uşaqlar olmaqla, 87,000 nəfəri əhatə edən mina və partlamamış hərbi sursatlar barədə məlumatlandırma tədbirləri həyata keçiriblər. Bu qiymətləndirmələrdən əldə edilmiş məlumatlar BMT-nin Azərbaycanda yardım edəcəyi sahələri müəyyənləşdirməsi üçün istifadə edilib. Bu sahələr mina ilə bağlı tədbirlərdən tutmuş sağlamlıq, psixoloji və sosial rifah, sığınacaq əldə etmək imkanı, qida və qeyri-qida vasitələri, təhsil və kənd təsərrüfatı kimi sahələri əhatə edir.





Gəncə şəhərində psixoloq uşaqla söhbət edir. UNICEF Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və ASAN Könüllüləri ilə əməkdaşlıq şəraitində psixoloji-sosial dəstəyə təcili ehtiyacı olan uşaqları dəstəkləmək üçün “Fövqəladə hallarda uşaqların müdafiəsi” layihəsini davam etdirir.

BMT qurumları münaqişədən zərər çəkmiş icmalarda yaşayan insanlara göstərilən sosial xidmətləri gücləndirmək və yardım etmək üçün milli və yerli qurumlarla əməkdaşlıq ediblər. UNİCEF-in dəstəyi ilə yerli tibbi müəssisələrdə qurulmuş 15 Körpə Dostu otağında hamilə qadınlar və azyaşlı uşaqlar erkən uşaq inkişafı ilə bağlı fəaliyyətlər, qidalanma ilə bağlı məsləhətlər və tibbi müayinələrdən faydalanıblar. UNİCEF tərəfindən 24 peşəkar psixoloq təlimlərə cəlb edilərək münaqişənin səbəb olduğu birbaşa və uzun müddətli təsirin öhdəsindən gəlmək üçün 1,070 uşağa ilkin psixoloji yardımın göstərilməsi və məsləhətlərin verilməsi məqsədi ilə münaqişədən zərər çəkmiş rayonlara ezam olunublar. Tibbi müəssisə obyektlərinə travma dəstləri, infeksiyanın profilaktikası və nəzarət avadanlıqları və cinsi və reproduktiv sağlamlıq (CRS) üzrə təcili yardım dəstləri (ÜST, UNFPA) təqdim edilib.



BMT qurumları, yaşayış şəraiti 2020-ci ildə alovlanmış münaqişədən zərər çəkmiş həssas əhali qruplarına təcili yardım təmin edib.

- Təxmini 10,000 nəfəri əhatə edən 2,100 həssas ailəyə qida paketləri (UNICEF)
- 16 günlük kampaniya müddətində 364 müvəqqəti köçkün qadına gigiyena vasitələri, geyim və fərdi qoruyucu vasitələr daxil olan dəstlər (BMT qurumları)
- 11,000-dən çox insanı əhatə edən 1300 ev ləvazimatı və 1000 gigiyena dəsti (UNICEF)
- Məcburi köçkün ailələrinə 400 gigiyena dəsti (ÜST)
- 24,000 ədyal və 2,400 mətbəx dəsti (BMT QAK)

Humanitar ehtiyacları daha yaxşı qarşılamaq üçün və UNCT-nin səhiyyə, mina ilə bağlı tədbirlər və qeyri-ərzaq vasitələri sahəsində münaqişədən zərər çəkmiş əhaliyə əlavə yardım göstərməsi məqsədilə BMT-nin Vahid Təcili Yardım Fondu (CERF) 2 milyon ABŞ dolları ayırıb. UNİCEF münaqişədən zərər çəkmiş uşaq və ailələrə dəstək olmaq üçün əlavə 910,000 ABŞ dolları məbləğində yardım səfərbər edib. BMTİP ANAMA-ya mina ilə bağlı tədbirlərə dəstək olmaq, eyni zamanda erkən bərpa işlərinə yardım kimi icmaların ehtiyat mərkəzlərində yaşayış şəraitinə dəstək olmaq üçün əlavə 750,000 ABŞ dolları yardım ayırıb. Bundan başqa, FAO münaqişədən zərər çəkmiş ərazilərdə humanitar yardım fəaliyyətlərinin əlaqələndirilməsi üçün Ərzaq Təhlükəsizliyi, Kənd Təsərrüfatı və Yaşayış İmkanları (FSAL) işçi qrupunun yaradılmasına təşəbbüs edib.

# 1-Cİ STRATEJİ PRİORİTET SAHƏ:
# ŞAXƏLƏNDİRMƏNİN ARTIRILMASINI VƏ LAYİQLİ ƏMƏYİ DƏSTƏKLƏYƏN DAYANIQLI VƏ İNKLÜZİV İQTİSADİ İNKİŞAFIN TƏŞVİQİ



Arıçılıq həm yüksək gəlirliliyi, həm də ekosistemə verdiyi faydalara görə BMT-nin kənd yerlərində dirçəlməsinə dəstək göstərdiyi kənd təsərrüfatı fəaliyyətlərindən biridir.

## ÜMUMİ BAXIŞ

**Nəticə 1.1:** 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmənin dərinləşməsi, dayanıqlı artım səviyyəsinin yüksəlməsi və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerlərinin yaradılması

**BMT qurumları:** FAO, BƏT, BMqT, BMTİP, UNFPA, BMT QAK

**DİM hədəfləri:** Hədəf 1.1, 1.2, 1.3, 1.4, 1.5, 2.1, 2.3, 2.4, 2.a, 2.b, 4.4, 4.7, 5.c, 8.3, 8.4, 8.5, 8.6, 8.8, 8.10, 9.3, 11.5, 16.7, 17.15,17.18, 17.9

2020-ci ildə bu prioritet sahə altında 26 coğrafi dairə üzrə 35 tədbir icra edilib.

## MALİYYƏ İCMALI




## İLK 10-LUQ







Bu qrafik hər bir Dayanıqlı İnkişaf Məqsədi üzrə planlaşdırılmış müxtəlif BMT fəaliyyətlərinin nisbətini göstərir.

## TƏRƏFDAŞLAR

Bu qrafik investisiyaların müxtəlif tərəfdaşların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı fəaliyyətinə necə töhfə verdiyini göstərir. Xətlərin eni ianə edilən resursların nisbi həcmini əks etdirir.




## DİM-LƏRƏ TÖHFƏ




Bu qrafik BMT-nin ölkədə hər bir Dayanıqlı İnkişaf Məqsədi üzrə öz resurslarını necə ayırdığını göstərir.

## GENDER BƏRABƏRLİYİNƏ TÖHFƏ [9]




Bu qrafik BMT fəaliyyətlərinin gender bərabərliyinə töhfəsinin nisbətini göstərir.




Bu qrafik gender bərabərliyi markerlərinin (yalnız əsaslı və əhəmiyyətli dərəcədə olanlar nəzərə alınmaqla) DİM-lər üzrə paylanma nisbətini göstərir.

[9] Əsaslı dərəcədə töhfə: Gender bərabərliyi fəaliyyətin əsas hədəfidir. Gender bərabərsizliyinin azalması, gender normalarının dəyişdirilməsi və ya qadın və qızların səlahiyyətləndirilməsi təşəbbüsün əsas məqsədidir.
Əhəmiyyətli dərəcədə töhfə: Bu fəaliyyətlər ümumiylikdə gender bərabərliyi 'əsaslı' fəaliyyətlərdir və ya gender bərabərliyinə və ya qadınların səlahiyyətləndiirlməsinə əhəmiyyətli dərəcədə töhfə verir.
Məhdud dərəcədə töhfə: Gender bərabərliyi / qadınların səlahiyyətləndirilməsi məhdud nəzərə alınır. Məsələn, gender üzrə təhlil və ya cinslər üzrə məlumatların toplanması və ya təhlili aparılır, lakin gender bərabərliyi üzrə birbaşa nəticələr yoxdur və ya azdır.
Töhfə vermir: Gender bərabərliyi məsələləri nəzərə alınmır və gender bərabərliyi və ya qadınların səlahiyyətləndirilməsi ilə bağlı nəticələr gözlənilmir.

***Sahibkarlığın və məşğulluğun canlandırılması***

Pandemiyanın iqtisadi təsiri səbəbindən əksər mikro, kiçik və orta ölçülü müəssisələr öz fəaliyyətlərində kəskin eniş ilə qarşılaşıblar. Buna cavab tədbiri olaraq pandemiyadan bərpa istiqamətində insanlara və müəssisələrə kömək etmək üçün BMTİP-in dəstəyi ilə bir sıra rəqəmsal həllər işə salınıb:

Nəqliyyat, Kommunikasiya və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə BMTİP www.evdeqal.az (hazırda reqemli.az) vahid alış-veriş portalının əsasını qoyub. Portalın məqsədi müəssisə və şirkətlərə rəqəmsal fəaliyyətə keçməkdə, eləcə də tibbi xidmətlər və qida çatdırılması da daxil olmaqla elektron xidmətlər göstərməkdə kömək etməkdir. 250-dən çox şirkətin qoşulduğu bu platformada analoji xidmət göstərmə modelindən rəqəmsal modelə keçid qaydaları barədə ödənişsiz kurs və vebinarlar təklif edilir.

BMTİP-in digər veb platforması - www.progro.az - iş axtaranları və sahibkarları bir araya gətirir və bu vaxta kimi 400-dən çox üzvü sıralarına daxil etməklə, gənclər üçün peşəkar və ixtisaslı təlimlər təmin edir.

www.bacar.az il ərzində 500-ə yaxın müəssisəyə məsləhət və bacarıqların formalaşdırılması istiqamətində dəstək verən özünüməşğulluq proqramı çərçivəsində hazırlanmış digər bir virtual təlim platformasıdır.

BMTİP müəssisələrin bağlanması və ya işçi sayının azalması səbəbindən iş yerlərini itirmiş 50,000 vətəndaş üçün İşçi Qüvvəsinin Bərpası Təşəbbüsü kurslarını təmin etmək məqsədi ilə dünyanın aparıcı tədris sistemi “Coursera” ilə əməkdaşlıq edib. Bu təşəbbüs iştirakçılara tanınmış universitetlər və təşkilatların təklif etdiyi və geniş spektri əhatə edən 4,000 pulsuz təlim kursu vasitəsilə bilik və bacarıqlarını artırmağa kömək edib.

Bundan başqa, 2020-ci ildə 513 gənc qadın qadınlar üçün nəzərdə tutulmuş biznes və məşğulluq sahəsində təlimlərdə iştirak edib. Əlavə olaraq, 227 qadın BMTİP və UN Women-in dəstəyi ilə şəxsi bizneslərini qurmağa müvəffəq olub.

Əksər hallarda qeyri-formal məşğulluğa cəlb edildikləri səbəbindən pandemiya dövründə qaçqın və sığınacaq axtaran şəxslər əlavə çətinliklərlə qarşılaşıblar. BMT QAK və BMT-nin Rezident Əlaqələndiricisinin yüksək səviyyədə təşviqat tədbirləri nəticəsində hazırda bu şəxslər rəsmi olaraq məşğulluğa cəlb edilə bilərlər. Bu məqsədlə sözügedən şəxslərə Azərbaycanda əmək müqavilələrini qeydiyyatdan keçirməyə imkan vermək üçün müraciət əsasında fərdi identifikasiya nömrələri veriləcək. Bununla yanaşı, Beynəlxalq Əmək Təşkilatının BƏT keçirdiyi işgüzar potensialın yaradılması fəaliyyətləri çərçivəsində işçi təşkilatları layiqli əmək, o cümlədən işçilərin müstəqil və demokratik həmkarlar ittifaqını təşkil etmək, eləcə də iş şəraitlərini yaxşılaşdırmaqdan ötrü kollektiv danışıqlar aparmaq hüquqlarının qorunması sahəsində beynəlxalq standartlara doğru inkişafı monitorinq edə biliblər.

### *Kənd təsərrüfatı və turizmə investisiya qoyuluşu*

Əhalinin 40 faizinin kənd təsərrüfatı fəaliyyətləri ilə məşğul olduğunu nəzərə alsaq, Azərbaycanda kənd yerlərində yaşayış şərtləri və məşğulluğun artırılması üçün kənd təsərrüfatı vacib bir vasitədir. Kənd təsərrüfatının ölkə üçün güclü bir artım sütunu olaraq qaldığını qəbul edən BMT qurumları bu sektora əlavə edilən dəyəri əhəmiyyətli dərəcədə artırmaq üçün səylər göstərib. FAO-nun rəhbərliyi ilə Aqrar Məsləhət Xidmətləri (AAS) sisteminin dəyişdirilməsi qadın və kişi fermerlərə məhsuldarlığı və ərzaq təhlükəsizliyini artırmaq istiqamətində səmərəli məsləhət dəstəyi verməkdən ötrü milli informasiya-məsləhət xidmətləri sistemini gücləndirmək istiqamətində atılan addımlardan biridir. Prosesə başlamaq üçün 2020-ci ildə vəziyyətin qiymətləndirilməsi aparılıb. Bu qiymətləndirmə regional aqrar və ərzaq sistemləri sxemlərinin cari vəziyyətini təsvir etməyə və Azərbaycanın iki rayonunda pilot tətbiqi nəzərdə tutulan AAS sisteminin yeni səmərəli modelini təklif etməyə imkan verəcək.




BMTİP ənənəvi bitkiçilik materialından istifadə edərək yerli genetik ehtiyatların uzunmüddətli mühafizəsini təmin etmək və kənd təsərrüfatı təcrübələrini təşviq etmək üçün yerli tərəfdaşlarla işləyir. Torpaq analizi və təlim üzrə yeni səyyar laboratoriya yerli şəraitdə tətbiq edilən ən uğurlu əkinçilik metodlarını yaymağa kömək edir.

Ənənəvi aqrar ölkə olmasına baxmayaraq, Azərbaycan istehsalda yerli sortlarının payı yalnız 5 faizi dənli bitkilər və 15-20 faiz tərəvəzlər olmaqla xaricdən idxal olunan toxumlardan asılıdır. Qida təhlükəsizliyi ilə bağlı risklərin qarşısını almaq üçün genetik resursların müxtəlifliyinin geniş olması xüsusi əhəmiyyət kəsb edir. Bu cür təhlükəli halların qarşısını almaq üçün BMTİP yerli genetik resursların uzun müddətli qorunmasını təmin etmək və ənənəvi məhsul materialından istifadə edərək aqrar fəaliyyətləri təşviq etmək istiqamətində yerli tərəfdaşlarla əməkdaşlıq edib. 2020-ci ildə BMTİP yeni aqro-biomüxtəliflik mərkəzlərinin yerinin müəyyən edilməsində dəstək göstərib. Yeni genetik resurslar toplanılıb və damazlıq proqramlarında istifadə edilib. Qobustan, Şəki və Abşeron rayonlarında gen bankları yaradılıb və Tərəvəz Tədqiqat İnstitutunun 1 hektar ərazisində təlim mərkəzinin əsası qoyulub. 135 fermer hazırda dayanıqlı təsərrüfat təcrübələrindən faydalanır, davamlı onlayn və yerində məsləhət əldə etmək imkanına malikdir. Fermerlərlə birgə əməkdaşlıq edərək 3,000 hektardan çox torpaq sahəsində meyvə, tərəvəz və taxıl bitkiləri əkilib.



BMqT kənd icmalarında, elektrik enerjisinə və təbii yanacağa ehtiyac duymadan istifadə olunan, süni, çoxəsrlik istifadə tarixinə malik, ənənəvi su təchizatı sistemləri olan kəhrizləri bərpa edir.

Digər bir tərəfdən BMqT yerli icmalarda texnogen, çoxəsrlik su təchizatı sistemləri olub, fəaliyyəti üçün elektrik enerjisi və ya yanacaq tələb olunmayan kəhrizlərin su təchizatı sistemlərinin bərpasına kömək edib. Bərpa edilmiş Şəmsi kəhrizi hazırda 214 ailəni və 90 hektar əkinə yararlı torpaq sahəsini su ilə təmin edir. 2020-ci ildə Azərbaycanda Kəhrizlərin bərpası ilə bağlı Milli Baş Planın layihəsi hazırlanıb, bu plan gələcək istifadə üçün 8 rayonun ərazisində mövcud olan 75 kəhrizi əhatə edir.



Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olmaq istəyən gənclərin sayı getdikcə azalır və nəticədə fermerlərin 60 faizdən çoxu yaşı 55-dən yuxarı şəxslərdir. FAO bölgələrdə kənd təsərrüfatını canlandırmaq və onu gəlirli və davamlı yaşayış vasitəsinə çevirmək üçün Hökumətlə əməkdaşlıq edir. 32 yaşlı fermer Rahib Ağayev kənddə qalmağı və dayanıqlı əkinçiliklə məşğul olmağı seçənlərdən biridir. Onun hekayəsi ilə buradan tanış olun.

Heyvandarlıq kənd yerlərində qidalanma və yaşayış şərtlərinin vacib mənbəyi kimi Azərbaycan üçün qida təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. FAO heyvandarlıq sahəsində texnologiyaları təkmilləşdirmək sahəsində Kənd Təsərrüfatı Nazirliyi ilə əməkdaşlıq edib. 2020-ci ildə 60 süni mayalandırma mütəxəssisi təlim keçib və süni mayalanmanın potensialı qiymətləndirilib. Bu da inəklər üçün daha yüksək konsepsiya sürəti, balalama ilə bağlı daha az problem, heyvanların sayının və genetik keyfiyyətinin artması və fermer təsərrüfatında məhsuldarlığın yüksək olmasını vəd edir. Bundan başqa, Qoyunçuluq üzrə Dəyər Zəncirinin İnkişafı (2025-ci ilə baxış) sənədi hazırlanıb və bu sənəd qoyunçuluq məhsullarının dəyər zəncirini (ət, süd və yun) formalaşdırmaq üçün səmərəli yollar təklif edir.

Yerli qida məhsulları istehsalçılarının potensialından istifadə etmək üçün FAO digər yeni bir təşəbbüsün icrasına başlayıb. Azərbaycanın üç şimal-qərb rayonunda 19 icma Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemi (QƏAİS) platformasının bir hissəsi kimi aqrar turizm və dəyər zəncirinin formalaşdırılması fəaliyyətlərinə cəlb ediliblər. Bu yerli icmalar onlara üstünlük qazandıran və regionun bu qlobal platformadan faydalanmasına kömək edən yerli ərzaq məhsullarının təşviqat mexanizmləri, mikro kreditlər, qida təhlükəsizliyi, maliyyə və vergiqoyma kimi məsələlər barədə məlumat əldə edirlər. Bununla yanaşı, BMTİP Azərbaycan Turizm və Menecment Universitetinin BMT-nin Ümumdünya Turizm Təşkilatından "TedQual" keyfiyyət sertifikatı əldə etməsi və rəsmən tanınmasına dəstək göstərib. Bununla da bu Universitet hazırda ölkənin turizm və otelçilik sektoru üçün yüksək ixtisaslı mütəxəssislər yetişdirir.

# 2-Cİ STRATEJİ PRİORİTET SAHƏ: İNSTİTUSİONAL POTENSİALIN GÜCLƏNDİRİLMƏSİ VƏ EFFEKTİV DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ



Uzun müddət davam edən karantin, münaqişənin eskalasiyası dövrləri və sonrasında, UNİCEF valideynlərlə uşaqlara və yeniyetmələrə qulluq etmək, eyni zamanda özlərinin qayğısına qalmaqla bağlı geniş məsləhətlər verib.

## ÜMUMİ BAXIŞ

**Nəticə 2.1:** 2020-ci ilədək Azərbaycanın şəffaf,sübutlara əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması
**Nəticə 2.2:** 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi
**Nəticə 2.3:** 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi

**BMT qurumları:** BMqT, BMT İHAK, BMTİP, UNECE, UNFPA, BMT QAK, UNİCEF, UN Women, ÜST
**DİM hədəfləri:** Hədəf 1.3, 1.4, 1.b, 2.2, 3.1, 3.3, 3.4, 3.7, 3.8, 3.b, 3.d, 4.1, 4.2, 4.5, 5.1, 5.2, 5.c, 8.2, 8.5, 9.4, 10.2, 10.7, 11.a, 16.3, 16.7, 16.9, 17.18
2020-ci ildə bu prioritet sahə altında 27 coğrafi dairə üzrə 64 tədbir icra edilib.

## MALİYYƏ İCMALI




İLK 10-LUQ







Bu qrafik hər bir Dayanıqlı İnkişaf Məqsədi üzrə planlaşdırılmış müxtəlif BMT fəaliyyətlərinin nisbətini göstərir.

## TƏRƏFDAŞLAR

Bu qrafik investisiyaların müxtəlif tərəfdaşların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı fəaliyyətinə necə töhfə verdiyini göstərir. Xətlərin eni ianə edilən resursların nisbi həcmini əks etdirir.



## DİM-LƏRƏ TÖHFƏ




Bu qrafik BMT-nin ölkədə hər bir Dayanıqlı İnkişaf Məqsədi üzrə öz resurslarını necə ayırdığını göstərir.

## GENDER BƏRABƏRLİYİNƏ TÖHFƏ

- **Əsaslı dərəcədə töhfə**
- **Əhəmiyyətli dərəcədə töhfə**
- **Məhdud dərəcədə töhfə**
- **Töhfə vermir**




Bu qrafik BMT fəaliyyətlərinin gender bərabərliyinə töhfəsinin nisbətini göstərir.




Bu qrafik gender bərabərliyi markerlərinin (yalnız əsaslı və əhəmiyyətli dərəcədə olanlar nəzərə alınmaqla) DİM-lər üzrə paylanma nisbətini göstərir.

### *İnsan Hüquqları ilə bağlı öhdəliklərin icrası*

2020-ci il ərzində Vətəndaş Cəmiyyəti Təşkilatları (VCT) və BMT-nin İnsan Hüquqları üzrə Ali Kommissarlığının (BMT İHAK) məsləhətləşmə və mentorluq sessiyaları vasitəsilə bilik və bacarıqlara yiyələnmiş hüquq müdafiəçiləri tərəfindən BMT-nin insan hüquqları üzrə müxtəlif müqavilə orqanlarına 29 alternativ hesabat hazırlanaraq təqdim edilib. Bu hesabatlar əlavə perspektivləri, narahatlıq yaradan məsələləri və ya Hökumətin hesabatlarında əks etdirilməyən məlumatları təqdim etmək üçün imkanlar təmin edir. Hesabatlar həm də ölkədə insan hüquqları ilə bağlı vəziyyətin daha yaxşı başa düşülməsinə imkan verir və Hökumətə daha münasib, köklənmiş və icrası mümkün tövsiyələrin verilməsi ilə nəticələnir. BMT İHAK həm də BMT-nin İşgəncələrə qarşı Konvensiyasına paralel hesabat təqdim etmək üçün İnsan Hüquqları üzrə müvəkkil (Ombudsman) ilə də əməkdaşlıq edib.

### *29 alternativ hesabat hazırlanıb və BMT-nin müxtəlif müqavilə qurumlarına təqdim edilib:*






BMT İHAK milli VCT-lərin nümayəndələri, vəkillər və Ombudsmanın nümayəndələri, o cümlədən onun regional mərkəzlərdən olan təmsilçiləri üçün BMT-nin insan hüquqları sahəsində sənədləri və mexanizmləri barədə biliklərinin artırılmasına yönələn müxtəlif virtual seminarlar təşkil edib.

Bundan başqa, zəngləri daha yaxşı qeydə almaq və cavabları izləmək üçün UNICEF-in dəstəyi ilə qabaqcıl texnologiyalardan istifadə edilərək, Ombudsman idarəsində uşaqlar üçün yeni rahat Çağrı Mərkəzi yaradılıb. Buna baxmayaraq, uşaq hüquqları ilə bağlı vəziyyətin birbaşa monitorinq edilməsi COVID-19 pandemiyası nəticəsində bir qədər çətinləşib və Milli Preventiv Qrupun monitorinq etdiyi uşaq qayğı müəssisələrinin sayı 2019-cu il ilə müqayisədə 50 faiz aşağı olub.

BMT QAK-ın dəstəyilə qeydiyyatdan keçmiş vətəndaşlığı olmayan şəxslərin üç il ərzində vətəndaşlığa qəbul edilməsini təmin etmək, həmçinin Azərbaycan ərazisində vətəndaşsızlıq hallarının qarşısının alınması və azaldılması sahəsində digər müvafiq fəaliyyətləri əlaqələndirmək və monitorinq etmək məqsədi ilə Vətəndaşsızlıq məsələləri üzrə İşçi Qrup yaradılıb. BMT QAK eyni zamanda vətəndaşlığı olmayan şəxslərə və vətəndaşsızlıq halını yaşamaq riski ilə üzləşən şəxsləri nəzərdə tutan müəyyən təşəbbüslərə başlayıb. Bu təşəbbüslər çərçivəsində həmin şəxslərə davamlı həll tapmaqda yardım üçün müraciət ediləcək yerlər barədə məlumatlar təqdim edilir.

BMT qurumları COVID-19 pandemiyasından zərər çəkmiş həssas qruplara (o cümlədən işsizlər, əlilliyi olan şəxslər, yaşlı insanlar, məcburi köçkünlər, kənd yerlərində yaşayan qadın və kişilər, qaçqınlar, miqrantlar) və digər şəxslərə ödənişsiz hüquqi yardım göstərilməsini daha geniş çərçivədə və daha sıx tezlikdə təmin edib. UNICEF Azərbaycanın Vəkillər Kollegiyasının təsdiqlədiyi və vəkillərin istifadəsi üçün tövsiyə etdiyi "Uşaqlara yönəlik Hüquqi Yardım" üzrə təlimat hazırlayıb. Bunlarla yanaşı, BMT İHAK Ombudsman və Vəkillər Kollegiyası ilə əməkdaşlıq edərək daimi əsasda ödənişsiz hüquqi xidmətlərin təmin edilməsi məqsədi ilə daha beş rayonda yeni hüquqşünasların işə cəlb edilməsini təmin edib.

### *Hüquq xidmətlərinə çıxış (BMT İHAK, BMT QAK, BMTİP, BMqT)*




### *Tibbi xidmətlərin genişləndirilməsi*

Ailə planlaşdırması ilə bağlı məsləhətləşmələr zamanı yanlış və köhnə məlumatların və qərəzli şəxsi fikirlərin ötürülməsini minimuma endirmək üçün UNFPA-nın dəstəyi ilə Virtual Kontraseptiv Konsultasiya (ViC) modulu Azərbaycan dilinə tərcümə olunaraq, Dövlət Tibb Universitetinin tədris planına daxil edilib. Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu ilə UNFPA və ÜST-ün birgə səyləri nəticəsində 3 rayonda təxminən 300 həkim və təcili yardım işçisinə Cinsi və Reproduktiv Sağlamlıq (CRS) üzrə Minimal İlkin Xidmət Paketi (MİXP) mövzusunda təlim keçilib, 400 həkim isə kritik vəziyyətlərin (doğuş zamanı ananın kritik vəziyyətdə olması) təhlilləri (perinatal təhlil) sahəsində təlim keçib. Uşaqlıq boynu xərçənginin qarşısının alınmasına dair modul tərcümə edilərək Azərbaycandakı şərtlərə uyğunlaşdırılıb və daha sonra nəşr edilərək ölkə üzrə tibb işçilərinə paylanılıb.

UNICEF onlayn platformalar vasitəsilə Körpə və erkən yaşlı uşaqların qidalanması (KEYUQ), peyvəndlənməsi və Erkən Uşaqlıq Dövrü İnkişafı (EUDİ) üzrə məsləhətlərin verilməsi daxil olmaqla, ana və uşaqlar üçün tibbi xidmətlərin aparılması və gücləndirilməsi sahəsində təbliğat aparmaqla yanaşı, yerli səhiyyə orqanları üçün texniki dəstək və məsləhətlərin verilməsini təmin edib. Ana südünün faydaları barədə sosial şəbəkədə postlar və mesajlar 73,684 nəfəri əhatə edib və bunlarla yanaşı 5,768 nəfər KEYUQ-la bağlı səhiyyə mütəxəssisləri ilə canlı məsləhətləşmə aparmaq imkanı əldə edib. Qidalanma ilə bağlı sosial media paylaşımlarını (uşaqların enerji ehtiyacının qarşılanması, hərtərəfli qidalanma təcrübələri, erkən uşaqlıq dövründə müxtəlif yaşlar üçün menyular, həmçinin anaların hamiləlik və laktasiya dövründə qidalanması) 96,832 nəfər görmək imkanına malik olub. Məktəbyaşlı uşaqların düzgün qidalanması ilə bağlı canlı sessiyalarda isə 706 nəfər iştirak edib.

BMTİP Azərbaycanda Hepatit C, vərəm, İnsanın immunçatışmazlığı virusu (İİV) ilə yaşayan insanların müalicəsi üçün dərman təminatına dəstəyini davam etdirib, habelə dərmana həssas və dərmana müqavimət göstərən vərəm xəstələri üçün vərəm əleyhinə 5,130 paket dərmanın satınalmasını təşkil edib. Bu fəaliyyətlər QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fond ilə BMTİP və Səhiyyə Nazirliyi arasında çərçivə sazişi daxilində baş verib və əsas məqsədi dərman və digər tibbi preparatların sərfəli, şəffaf və vaxtında satınalınmasında Hökumətə yardım etmək və milli satınalma, keyfiyyətin təminatı sistemi və potensialın formalaşdırılması prosesində növbəti islahatın aparılmasına dəstək olmaqdır.

BMT QAK qaçqınların və sığınacaq axtaranların Azərbaycan vətəndaşları ilə bərabər şəraitdə müalicə almaq imkanına malik olmalarını təmin etmək və bu sahədə əngəlləri müəyyənləşdirmək məqsədi ilə 161 tibb müəssisəsini monitorinq edib və qiymətləndirib. Qeydiyyatdan keçmiş qadın və sığınacaq axtaran şəxslərə müqavilə ilə cəlb edilmiş özəl xəstəxana vasitəsilə pulsuz tibbi yardım xidmətləri göstərilib və 2020-ci ildə 690 müraciət halı qeydə alınıb. BMT QAK-ın vasitəçiliyi ilə "FujiOpticals" şirkəti məcburi köçkünlər üçün 1,500 eynək və 20 cüt göz linzası təmin edib.

***Təhsildən istifadə imkanlarının artırılması***

UNICEF-in modeli əsasında yaradılan icma əsaslı erkən təlim mərkəzlərinin sayı il ərzində 320-dən 500-ə artırılıb və onlayn platformalara keçid etdikdən sonra burada təhsil alan 3-4 yaşlı uşaqların sayı 9,208 nəfərə çatıb. Mart ayından etibarən uzadılan karantin dövrü ərzində UNICEF-in dəstəyi ilə hazırlanan, televiziya və rəqəmsal platformalar vasitəsilə təqdim edilən evdə erkən təlim sahəsində məsləhətlər və valideynlərin maarifləndirilməsi üçün resurslardan təxminən 160,000 məktəbəqədər yaşda olan uşaq və 100,000-dən çox valideyn faydalanıb, o cümlədən bu cür resurslar sırasına Təhsil Nazirliyi ilə tərəfdaşlıq çərçivəsində hazırlanmış valideyn məlumat portalı (www.ilk5il.az) və mobil tətbiqi də (ilk5il) daxildir.



Peşə təhsili mərkəzləri BMTİP-in dəstəyilə, tələbələr üçün onlayn dərslər hazırlamaqla, onların pandemiya müddətində dərslərdə evdən iştirak etməsinə şərait yaradıb.

BMTİP-in dəstəyi ilə peşə məktəbləri pandemiya zamanı evdən dərsə qoşulmanı təmin etməklə, tələbələr üçün onlayn dərslərin keçirilməsinə davam edib. Video dərslər təkcə milli televiziyada deyil, eyni zamanda Peşə Təhsili üzrə Dövlət Agentliyinin YouTube kanalı və Təhsil Nazirliyinin www.video.edu.az portalı daxil olmaqla, rəqəmsal platformalarda da yerləşdirilib.

Qadınların STEM[10], tədqiqat və təcrübə sahəsində bərabər təmsil olunmasındakı çətinlikləri nəzərə alaraq BMTİP gənc qadın və qızları STEM proqramlarında iştiraka ruhlandırmaq üçün yeni bir platformanın əsasını qoyub və karyera istiqaməti təmin etmək məqsədi ilə tələbələri mentorlarla bir araya gətirməyə davam edib.

UNICEF-in dəstəyi ilə fəaliyyət göstərən Karyera İnkişaf Mərkəzləri və Milli Gənc Evləri şəbəkəsi rəqəmsal platformalar vasitəsilə təxminən 8,000 gənc insanı əhatə edərək, psixoloji və hüquqi məsləhətlərin verilməsi, o cümlədən iş yerinə hazırlıq, sosial sahibkarlıq, icma layihəsinin tərtibatı, könüllü fəaliyyət və s. kimi kursları təmin edib. BMqT, həmçinin gənc işçilərlə aparılan proqrama şiddətli ekstremizm və radikallaşma təhlükəsi barədə məlumatları daxil edib.

5,000-dən çox yeniyetmə, gənc, onların ailə üzvləri və müəllimləri UNICEF-in Əsas Həyat bacarıqları proqramında onlayn formatda iştirak edib və 77 faiz iştirakçı əldə etdikləri bacarıq və konsepsiyaların gündəlik həyatları və ailə daxilində istifadəsi ilə bağlı müsbət rəy bildirib. Bu həm də onlara COVID-19 pandemiyası dövründə gərginlik və məyusluq kimi hisslərin öhdəsindən gəlməyə kömək edib.

BMT QAK təxminən 70 qaçqın və sığınacaq axtaran gəncə təhsil almaları istiqamətində birbaşa yardım edib, onların kollec və universitetlərə qəbul olması və təhsil haqlarının ödənilməsinə dəstək olub.

Cəmiyyətləri daha inklüziv (bərabər imkanlara əsaslanan) etmək BMT fəaliyyətlərinin başlıca diqqət mərkəzində insan və onun rifahı dayanır. 2020-ci ildə BMT qurumları insanları həyatın müxtəlif sahələrindən təcrid edilməyə məruz qoyan çətinliklərin aradan qaldırılması istiqamətində Azərbaycan Hökuməti və digər tərəfdaşlarla birlikdə fəaliyyət göstərib.

UNICEF sosial təminat sisteminin əsas hissəsi olan sosial xidmətlərdə strateji yanaşmanın tətbiqi üçün texniki yardım və təşviqat işinə davam edib. "2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiyanın yekun layihəsi təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilib. Sosial xidmətlərin strateji əhəmiyyəti Əmək və ƏƏSMN tabeliyində Sosial Xidmətlər Agentliyinin yaradılması ilə peşəkar sosial işçiləri əhatə edən institusional islahatlara yol açıb. UNİCEF-in vahid sosial xidmətlər modeli hökumət tərəfindən milliləşdiriləcək. 2020-ci ildə UNİCEF uşaqların uşaq müəssisələrindən ailələrə yerləşdirilməsi sahəsində beynəlxalq standartlar və üstün təcrübələri tətbiq etməklə övladlığa götürmə sistemində islahatlara da dəstək verib. Əlavə olaraq, qurum, uşaqların cəmiyyətə reinteqrasiyası üzrə milli konsepsiyanın hazırlanması, işlərin baxılması və həlli vasitələrinin yaradılması, habelə ƏƏSMN-nin aidiyyəti struktur vahidlərinin işçi heyətində işgüzarlıq potensialının formalaşdırılması ilə bağlı texniki dəstək göstərib.

Sağlamlıq imkanları məhdud şəxslər ictimaiyyətin çox zaman gözünə görünməyən maneələr və çətinliklərlə üzləşməyə davam edirlər. Təhsil və təlimdən təcrid olunma işlə təmin edilmiş çox sayda sağlamlıq imkanları məhdud insanların adətən aşağı ödəniş əsasında, sadə işlərdə və çox zaman təcrid olunmuş yerlərdə işləməsi, tam işgüzarlıq potensialını gerçəkləşdirmək imkanından faydalanmaması deməkdir. Bu çətinliyi aradan qaldırmaq məqsədi ilə, BMTİP və ƏƏSMN-nin birgə təşəbbüsü olan özünəməşğulluq proqramı sağlamlıq imkanları məhdud olan işsiz insanlara sahibkarlıq mövzusunda ödənişsiz təlim keçmək, həmçinin məsləhət vermək, avadanlıq və ya material şəklində maliyyə dəstəyini göstərməklə şəxsi işini qurmağa yardım edir. 2020-ci ildə BMTİP sağlamlıq imkanları məhdud şəxslərin 528 biznes planını qəbul edib, nəticədə 51 yeni mikro və kiçik sahibkarlıq subyekti təsis edilib. Əlavə olaraq, BMqT ekstremizm təhlükəsinə məruz qalmış rayonlarda ekstremizmə yönəlmə risklərini azaltmaq və yaşayış səviyyəsini bərpa etmək məqsədilə 66 ev təsərrüfatını kiçik və mikro biznes qrantları ilə dəstəkləyib.

[10] STEM abbreviaturası (science, technology, engineering, and mathematics) Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat mənasını verir.



Nanəxanım Əzimova əlilliyi olan və olmayan tələbələri səlahiyyətləndirmək və mənfi sosial təsəvvürləri dəyişdirmək məqsədi ilə, Bakı şəhərində onlara ödənişsiz əsaslarla rəsm, toxuculuq və ağac üzərində oymaçılığı öyrədən ilk İnklüziv İncəsənət Məktəbinin tələbəsidir.

Məktəblərin qapalı qaldığı dövrdə sağlamlıq imkanları məhdud uşaqlar üçün inklüziv təhsil imknalarının genişləndirilməsi ilə bağlı çətinliklərə baxmayaraq, UNİCEF "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın icrasını dəstəkləməyə davam edib. Belə ki, ilkin pedaqoji və peşəkar müəllimlərin hazırlığı üçün rəsmi tədris proqramına (kurrikuluma) inklüziv təhsil üzrə yeni təlim proqramı daxil edildi və 10 mindən çox ibtidai sinif müəllimi, 320 universitet professor-müəllim heyəti və 1,300 pedaqoji universitet tələbəsi inklüziv təhsil yanaşmaları mövzusu üzrə təlim keçdi.

BMTİP və İçərişəhər Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsinin birgə səyləri ilə Bakıda yaradılmış İncəsənət və Sənətkarlıq İnklüziv Peşə Təlimi Mərkəzi sağlamlıq imkanları məhdud olan və olmayan təxminən 115 uşaq və gənc üçün dülgərlik, dulusçuluq, şəbəkəçilik, basma naxışlar və bəzəkli əl işləri (suvernirlər) sənətlərini inklüziv qaydada öyrədən və öyrənənlər arasında təmas yaradan bir məkandır. Mərkəz, tələbələrinin qapanma (xüsusi karantin rejimi) dövründə tədris fəaliyyətinə davam etməsinə şərait yaratmaq məqsədilə onlayn tədris platformalarına keçməklə kurslarını bərpa edib.



UNFPA və ƏƏSMN-nin fəal yaşlanma ilə bağlı layihəsi çərçivəsində yaşlı insanlar üçün rəqs terapiyası seansı keçirilir. Layihə, təqaüdçülərin fəal və sağlam yaşamalarını təmin etmək üçün müxtəlif dəstəkləyici və inklüziv tədbirlər və proqramların təqdim olunduğu innovativ sosial təşəbbüsdür.

2020-ci ildə UNCT sosial yardım şəbəkələrinə ehtiyacı olan, aşağı gəlirli, həmçinin tənhalığa məruz qalmış yaşlı əhali ilə işləməyə davam edib. UNFPA-nın yaşlılar arasında gümrah qocalıq həyat tərzi (fəal yaşlanma) vasitəsilə rifahın təşviq edilməsi təşəbbüsündən 2020-ci ildə 30,345 yaşlı insan faydalanıb. Sağlam qidalanma, memarlıq, aşpazlıq, sənətkarlıq, incəsənət, idman, rəqs və digər sosial və öyrənmə fəaliyyətləri onlara həmçinin təcrid və təklikdən də yayınmağa kömək edib. UNFPA əhali arasında fəal yaşlanma ilə bağlı hazırki vəziyyəti, mümkün potensialı və gələcək faydaları müəyyən edən Fəal Yaşlanma İndeksinin (AAI) yaradılması sahəsində Azərbaycan Hökuməti ilə əməkdaşlığa davam edib.



Elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) sahələrində gender fərqinin aradan qaldırılması hər kəsə faydalı infrastruktur, xidmət və həllərin yaradılması üçün çox vacibdir və bu BMTİP-in yeni layihəsinin diqqət mərkəzindədir.

***Gender bərabərliyinin artırılması***

2020-ci ildə Azərbaycanda ölkəmiqyaslı siyasətə dair iki əsas sənəd, Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı və Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı qəbul edilib. Bu planların hər biri UNFPA-nın rəhbərliyi altında Rezident Əlaqələndirici və UNCT tərəfindən selektiv abortlara (hamiləliyin cinsi seçim səbəbindən süni kəsilməsi) və gender əsaslı zorakılığa (GƏZ) qarşı illər ərzində yüksək səviyyədə aparılan təbliğat və təşviqat işinin məhsuludur. Əlavə olaraq, 16 Günlük Fəallıq kampaniyası çərçivəsində GƏZ hallarının qeydiyyatını aparan, psixoloji yardım, böhran vəziyyəti yarandıqda isə müdaxilə tədbirlərini təklif edən və zərərçəkmiş şəxsləri müvafiq xidmətlərə yönəldən üçrəqəmli qaynar xətt (860) istismara verilib.

BMT-nin Gender məsələləri üzrə Tematik Qrupu (GTG) BMT qurumları, həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, ƏƏSMN və inkişaf məsələləri üzrə digər tərəfdaşları 2020-ci ildə keçirilmiş 16 Günlük Fəallıq kampaniyasına cəlb etmiş, televiziya, radio kanalları və video konfranslar vasitəsilə ictimaiyyətin COVID-19 pandemiyasının, həmçinin münaqişənin qadın və qızların həyatına mənfi təsirləri ilə bağlı məlumanlandırılmasına xüsusi diqqət yetirib.

2020-ci ildə GTG, qanunvericilik və siyasət çərçivələrinin, həmçinin işgüzarlıq potensialının təkmilləşdirilməsi məqsədilə məlumatlandırma və təbliğat işinə xüsusi diqqət yetirməklə müvafiq qurumlarda gender məsələlərinin təşviqinə xüsusi əhəmiyyət verib. Pandemiya və münaqişənin yaratdığı çətin vəziyyətə baxmayaraq, yuxarıda qeyd edilmiş fəaliyyətlərin 35%-i (keçən illə müqayisədə 13%-lik artım baş verməklə) birgə səylər hesabına həyata keçirilib.

UNCT-nin 2020-ci ildə apardığı Ölkə üzrə Ümumi Təhlildə (ÖÜT) Azərbaycanın dayanıqlı inkişaf yolunda başlıca problemlərdən biri kimi gender bərabərsizliyi vurğulanmış və BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədində gender bərabərliyi, qadın və qızların səlahiyyət sahibi olmasına həsr edilmiş ayrıca prioritet sahənin UNCT tərəfindən seçilməsinə təkan verib. Gender yanaşmasının bütün prioritet sahələrə şamil edilməsinə baxmayaraq, ayrıca təyin edilmiş prirоritet sahənin daxil edilməsi ilə Çərçivə Sənədi qadın və qızların onların həyatına təsir edən qərarlarda tam iştirak etməsinə müvafiq şəraitin yaradılması istiqamətində bərabərsizlik hallarını aradan qaldırmaq üçün siyasət və praktikada konkret dəyişmələrin baş verməsi məqsədini daşıyır.




Milli qanunvericilik və ölkənin sosial-iqtisadi strukturu mövcud çatışmazlıqları aradan qaldırmaq üçün təkliflər edilməklə gender nöqteyi-nəzərindən qiymətləndirilib. Bax




Jurnalistləri xəbər və hadisələrin işıqlandırılmasında gender yanaşmasının tətbiqi yolları üzrə istiqamətləndirən təlimat kitabı çap edilib. Bax




BMTİP kənd yerlərində kiçik ailə bizneslərinin təşkilinə və genişləndirilməsinə kömək məqsədilə Avropa İttifaqı və ABAD-la əməkdaşlıq edir. Balakən rayonunda Holland üslubu ilə hazırlanan bu pendirin ilk istehsalçıları kimi, Mirələmovlar ailəsinin hədəfi təkcə yerli mağazalar deyil, həm də ölkə ərazisində fəaliyyət göstərən ticarət obyektləridir.



Azərbaycanın ilk qadın futbol meneceri olan Dilarə Əliyeva Qax rayonunun ilk qadın bələdiyyə şurası üzvlərindən biridir. O, Avropa İttifaqı, BMTİP və Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin yaratdığı Gender əsaslı Bələdiyyə Akademiyasının məzunu olub. Tam məqaləni burada oxuya bilərsiniz.

***Transsərhəd təşəbbüsləri***

Azərbaycan, Şərqi Avropa və Ön Asiya bölgələrinin kəsişmə nöqtəsində yerləşir və Avropa ilə Asiya qitələrini birləşdirən nəqliyyat qovşağına çevrilməkdədir. UNCT, sərhəd təhlükəsizliyi, hüquq-mühafizə fəaliyyəti və miqrasiya axınlarını idarəetmə sahələrində qabaqcıl sistemləri qurmaq məqsədilə Azərbaycan Hökumətinə davamlı dəstək göstərir. 2020-ci ildə BMqT, BMT-nin Terrorçuluğa qarşı Mübarizə İdarəsi (UNOCT) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyi nəzdində Sərhəd Qüvvələri Komandanlığının dəstəyi ilə API/PNR (sərnişinlərə dair qabaqcıl məlumat/sərnişin adının qeydiyyatı) sistemləri ilə təchiz edilmiş yeni sərhəd-keçid məntəqələri yaradılıb. İstismara verilmiş yeni sistemlər Azərbaycan Hökumətini gömrük və miqrasiya xidmətləri tərəfindən ilkin rəsmiləşdirməni aparmaq, ictimai təhlükəsizliyi gücləndirmək və səyahətləri hər kəs üçün daha təhlükəsiz və rahat etmək baxımından sərnişin və yüklərə dair qabaqcıl məlumatla təmin edir. Sərnişinlərə dair məlumatdan hüquq-mühafizə, sərhəd təhlükəsizliyi, gömrük və kəşfiyyat işində istifadə hökumətə terrorçuluq və ağır cinayətlərə qarşı mübarizə aparmaq məqsədilə Terrorçuların Yer Dəyişməsinə qarşı BMT-nin Mübarizə Proqramının həyata keçirilməsində də yardım edəcək.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) dəstəyi ilə Azərbaycan, yük axınlarını asanlaşdırmaq və sərhəddən keçid əməliyyatlarını fiziki təmas, kağız işi olmadan və arasıkəsilməz qaydada təmin edən “Beynəlxalq yük daşımaları haqqında” Gömrük Konvensiyasının məlumatların beynəlxalq elektron mübadiləsi sisteminə (eTIR International System) qoşulub.

BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) “Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram” (CCP) çərçivəsində strateji ticarət və ixrac üzərində nəzarət mövzusunda təlimlərin keçirilməsi üçün mövcud bilik və bacarıqları müəyyənləşdirmək və BMT Təhlükəsizlik Şurasının 1540 saylı Qətnaməsinin[11] icrası ilə bağlı qüvvədə olan qanunvericilik və normativ hüquqi aktları müzakirə etmək məqsədilə aidiyyəti dövlət qurumları ilə texniki qiymətləndirmə missiyasını həyata keçirib. Ümumdünya Gömrük Təşkilatı ilə birlikdə UNODC, Dövlət Gömrük Komitəsinin sərhəd mütəxəssislərinin, həmçinin Ələt (Bakı) və Astara CCP giriş-çıxış məntəqələrində nəzarət bölmələrinin (PCU) üzvlərinin bacarıqlarını artırmaq məqsədilə CCP çərçivəsində onlayn formatda qabaqcıl təlimlər/ustad təcrübəsi tədbirlərini də həyata keçirib. Onlar 2020-ci ildə Astara gömrük-sərhəd keçid məntəqəsində toplam 929,8 kq heroinin müsadirə edilməsində iştirak ediblər.

[11] https://www.un.org/ga/search/view_doc.asp?symbol=S/RES/1540%20(2004)

# 3-CÜ STRATEJİ PRİORİTET SAHƏ:
# ƏTRAF MÜHİT SAHƏSİNDƏ İDARƏÇİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ, TƏHLÜKƏ VƏ FƏLAKƏTLƏRƏ QARŞI DAYANIQLILIĞIN GÜCLƏNDİRİLMƏSİ



## ÜMUMİ BAXIŞ

**Nəticə 3.1:** 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi

**BMT qurumları:** FAO, BMqT, BMTİP, UNECE, ÜST

**DİM hədəfləri:** Hədəf 2.4, 3.8, 3.d, 6.5, 9.4, 13.1, 13.2, 13.3, 13.a, 13.b, 14.5, 14.6, 15.2, 15.3, 15.9, 17.18, 17.19

2020-ci ildə bu prioritet sahə altında 11 coğrafi dairə üzrə 48 tədbir icra edilib.

## MALİYYƏ İCMALI




### İLK 10-LUQ







Bu qrafik hər bir Dayanıqlı İnkişaf Məqsədi üzrə planlaşdırılmış müxtəlif BMT fəaliyyətlərinin nisbətini göstərir.

## TƏRƏFDAŞLAR

Bu qrafik investisiyaların müxtəlif tərəfdaşların ölkədə Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı fəaliyyətinə necə töhfə verdiyini göstərir. Xətlərin eni ianə edilən resursların nisbi həcmini əks etdirir.



## DİM-LƏRƏ TÖHFƏ




Bu qrafik BMT-nin ölkədə hər bir Dayanıqlı İnkişaf Məqsədi üzrə öz resurslarını necə ayırdığını göstərir.

## GENDER BƏRABƏRLİYİNƏ TÖHFƏ




Bu qrafik BMT fəaliyyətlərinin gender bərabərliyinə töhfəsinin nisbətini göstərir.




Bu qrafik gender bərabərliyi markerlərinin (yalnız əsaslı və əhəmiyyətli dərəcədə olanlar nəzərə alınmaqla) DİM-lər üzrə paylanma nisbətini göstərir.

### *Beynəlxalq standartlara əməletmə*

Azərbaycan Hökuməti, BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyası (UNFCCC) üzrə beynəlxalq öhdəliklərin bir hissəsi kimi iqlim dəyişmələri ilə əlaqədar baş verən təmayül və hadisələrə dair milli kommunikasiya və yenilikləri əks etdirən ikiillik hesabatlar şəklində müntəzəm hesabatlılığı təmin edir. 2001, 2010 və 2016-cı illərdə baş tutmuş birinci, ikinci və üçüncü hesabatlardan sonra ölkə, BMTİP-in texniki yardım və mütəxəssis dəstəyi ilə hazırlanmış dördüncü milli kommunikasiya hesabatını təqdim etmək ərəfəsindədir. Əlavə olaraq, iqlim dəyişmələrinə qarşı tədbirlərin prioritet sektorlarda kütləviləşdirilməsi və ölkə qanunvericiliyi ilə Aİ-nin qanunlar külliyyatı arasında müqayisəvi təhlilin aparılmasına dair tövsiyələri özündə ehtiva edən, atmosfer havasına atılan tullantıların azaldılmasına dair İnkişaf Strategiyası üzrə yol xəritəsi hazırlanıb.

UNECE-nin dəstəyi ilə Azərbaycan, BMT-nin Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyası (ESPOO Konvensiyası) ilə milli qanunvericilik arasında mövcud boşluqların aradan qaldırılması və ətraf mühitlə bağlı qiymətləndirməyə dair milli qanunvericilik bazasınının beynəlxalq standartlarla həmahəng şəklə salınması istiqamətində hökumətə bələdçilik edən "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanun layihəsinin hüquqi icmalını yekunlaşdırıb. UNECE-nin Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə Konvensiyasının icrası ilə bağlı birinci milli hesabatın təqdim edilməsi Azərbaycanı transsərhəd yerüstü və yeraltı su hövzələri, onların mühafizəsi və dayanıqlı əsasda idarə edilməsi sahələrində əməkdaşlığın qurulması müstəvisinə yaxınlaşdırır.

Əlavə olaraq, FAO-nun dəstəyilə Azərbaycanın kənd təsərrüfatı və torpaqdan istifadə, torpaqdan istifadənin dəyişməsi və meşə təsərrüfatı (LULUCF) sektorlarında milli səviyyədə müəyyən edilmiş töhfələrini (NDC)[12] həyata keçirmək səylərinə dəstək olaraq müfəssəl hesabat hazırlanıb. Hesabat, ölkə üzrə milli prioritetləri kənd təsərrüfatı və LULUCF sektorları ilə əlaqədar iqlim dəyişmələri öhdəliklərinə daha yaxşı uyğunlaşdırmaq üçün müvafiq vasitələrlə də təmin edir. Azərbaycanın kənd təsərrüfatı və LULUCF sektorları ilə bağlı milli səviyyədə müəyyən edilmiş töhfələrinin həyata keçirilməsinə özəl sektorun qatılmasından faydalanmaq məqsədilə gender məsələlərinə cavabdeh və iştirakçılığa əsaslanan investisiya planının hazırlanması işi davam etdirilir.

### *Təhlükələrə qarşı dayanıqlılığın gücləndirilməsi*

Azərbaycanın mühüm kənd təsərrüfatı mərkəzi olmasına baxmayaraq, pestisidlərdən kütləvi istifadə ətraf mühiti əhəmiyyətli dərəcədə çirkləndirir və insanları bu çirklənməyə məruz qoyur, ətraf mühit və insan sağlamlığı ilə bağlı ciddi narahatlığa səbəb olur. Bununla bağlı FAO, Azərbaycanda pestisidlərin ətraf mühit və insanlara mənfi təsirini azaltmaq üçün pestisid həcmlərini daha yaxşı tənzimləmək məqsədilə milli tərəfdaşlarla yaxından əməkdaşlıq edir. 2020-ci ildə müddəti başa çatmış pestisidləri kənarlaşdırmaq bacarıqları qiymətləndirilib, qanunvericilik bazası, ölkədə qüvvədə olan qanunlar və normativ-hüquqi aktlar beynəlxalq tələblərə uyğunlaşdırılması baxımından təhlil edilib və Pestisidlərə Vahid Nəzarət sahəsində pilot tədbirləri icra etmək məqsədilə tədbirlər planı tərtib edilib. Əhəmiyyət kəsb edən endemik və yad heyvan xəstəlikləri ilə bağlı erkən ayırdetmə, müayinə və cavab tədbirləri, o cümlədən baytarlıq müayinəsi sahəsində milli potensialı artırmaq üçün FAO yerli tərəfdaşları xəstəliklərin izlənilməsi (müşahidəsi), o cümlədən baytarlıq müayinəsinə dair bilik və bacarıqlarla təmin edib. Çəyirtkə sayının monitorinqi və nəzarətdə saxlanılması tədbirlərinin bir hissəsi olaraq, 2020-ci ildə FAO-nun yardım və məsləhətlərinə əsasən 32,390 hektar ərazidə çəyirtkələrə qarşı mübarizə aparılıb.

İnsan sağlamlığının və rihafının təmin edilməsi istiqamətində digər təşəbbüs, Azərbaycan Respublikasında qida təhükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramına uyğun olaraq qida təhlükəsizliyinə nəzarətin və risklərin bildirilməsi sistemlərinin gücləndirilməsinə dəstək olub. FAO-nun göstərdiyi texniki yardım və verilmiş məsləhətlər nəticəsində Qida Təhlükəsizliyi Agentliyi risklərin kommunikasiyası və fitosanitar sistemi idarəetmə sahələrinə aid vasitə və bilikləri əldə edib. Əlavə olaraq, istehlakçıların sağlamlığını qorumaq və ərzaq ticarətində ədalətli mexanizmləri yaratmaq məqsədilə qida təhlükəsizliyi sahəsində milli normativ-hüquqi aktlar və beynəlxalq standart və davranış qaydaları arasında həmahəngliyi təmin etmək üçün Azərbaycanda beynəlxalq qida standartları və qaydaları külliyyatı (Codex Alimentarius) tətbiq edilib.

[12] Azərbaycan ilk NDC hesabatını UNFCCC-ə 2017-ci ildə təqdim etmiş və iqlim dəyişmələrinə qarşı qlobal tədbirlərə töhfə olaraq istilik effekti yaradan qazların atmosfer havasına atılan həcminin 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilədək 35% civarında azaldılması öhdəliyini bildirmişdir.



FAO-nun Azərbaycanla tərəfdaşlığının prioritetlərindən biri kənd yerlərində yerləşən təşkilatlarda qadınların iştirakının və kəndli qadınlar üçün gəlir gətirən fəaliyyətlərin təşviqidir. Bu dəstəkdən faydalanan qadınlar yiyələndikləri bacarıqlardan COVID-19 pandemiyası başladıqdan sonrakı çətin aylarda öz yaşayış vasitələrini qoruyub saxlamaq üçün istifadə edirlər.

### *Meşələrin dayanıqlı istismarı*

Meşə ekosistemləri sərvətindən dayanıqlı istifadəni təmin etmək üçün FAO-nun texniki yardım və mütəxəssis dəstəyi ilə Meşələrin Qiymətləndirilməsi və Monitorinqi üzrə Mili Sistem gücləndirilib. Ölkədə monitorinqlə bağlı konkret məqsədləri (məsələn, landşaftın bərpası, meşələrin seyrəlməsi və qırılması nəticəsində atmosfer havasına atılan tullantı həcminin izlənilməsi, taksasiya əsasında milli meşə örtüyü xəritələrinin yaradılması, fəlakət hallarının qiymətləndirilməsi, müxtəlif zaman sıraları və modellər yanaşması əsasında qaramal sayının və təbii örüş sahələrinin istismarının tənzimlənməsini) yerinə yetirmək üçün müvafiq məlumatın toplanılmasına imkan yaradan Collect Earth (yüksək dəqiqliklə peyk çəkilişləri) texnologiyasından istifadəyə başlanıb. Eyni zamanda, Azərbaycan, Milli Meşələrin Taksasiyasının (NFI) tərtib edilməsinə şərait yaradan Qlobal Meşə Sərvətinin Qiymətləndirilməsi (FRA) proqramına daxil edilib.

### *İnnovativ Həll Yollarının Yaradılması*

BMTİP Azərbaycanda innovasiyaları ərsəyə gətirən icmaların gücləndirilməsini dəstəkləyən təşəbbüsləri davam etdirib. 2020-ci ilin dekabrında BMTİP ölkədə innovativ ideyaları yaymaq, “startap” hərəkatının miqyasını artırmaq və gənc əhali arasında innovativ düşüncə tərzini inkişaf etdirmək məqsədilə, 80-dən çox ölkəni təmsil edən 200-dən çox məruzəçi və 3,200-dən çox iştirakçının qatıldığı, bir milyondan artıq seyrçi auditoriyasını cəlb edən “İnnovasiyalar həftəsinin” təşkilinə dəstək verib.

BMTİP həmçinin AquaHack (su mövzusunda hakaton) innovasiya müsabiqəsini elan edərək, su ilə bağlı innovativ və əlverişli həll yollarının tapılması istiqamətində 300-dən çox şəxsin müraciətini qəbul edib. Su ehtiyatlarını idarəetmə mövzusunda 33 rəqəmsal həll yolları təklif edilib, aşağıdakı təkliflər mükafata layiq görülüb: alternativ enerji mənbələrindən istifadə etməklə dəniz suyunun şirinləşdirilməsinə dair yeni, qeyri-standart prosedur; kənd təsərrüfatında su istehlakını minimuma endirmək üçün sudan istifadə həcmini hesablayan və “zirək suvarma” yanaşmasını qiymətləndirən IoT (internetə bağlı əşyalar) əsaslı cihaz; yaşayış evlərində yağış sularından səmərəli istifadə etmək üçün suya həssas sensor cihazı.

BMTİP-in Ümumdünya Ekologiya Günündə, “Dəyişiklik evdən başlayır” şüarı altında başladığı “Özün Yarat” virtual müsabiqəsinə yaradıcı üslubda təkrar istifadə yanaşması əsasında 156 layihə təqdim edilib. Bu yanaşmanın qlobal miqyasda vüsət alması nəticəsində “Özün Yarat” platforması azərbaycanlıları adətən atdıqları tullantı materiallarını yaradıcı üslubda təkrar istifadəyə həvəsləndirib.




*Müsabiqə iştirakçılarının “[Özün Yarat](#)” platformasında nümayiş etdirilmiş “təkrar yaradıcı istifadə” məhsulları.*

# 2020-Cİ İLİN ÇAĞIRIŞLARI

Azərbaycanda COVID-19 pandemiyasının başlaması, Dağlıq Qarabağ və onun ətrafında münaqişənin yenidən alovlanması, BMT qurumlarının 2020-ci ildə fəaliyyətinin icrasını, o cümlədən idarəetmə, əməliyyat işlərini, proqramların yerinə yetirilməsini və monitorinqin aparılmasını ləngidib. BMT qurumları, hər iki hadisədən zərər çəkmiş şəxslərə mümkün qədər çox dəstək vasitələrini yönəltmək məqsədilə proqram üzrə fəaliyyətlərinin yeni ardıcıllıq sırasını müəyyən etmək məcburiyyətində qalıb. Pandemiyanın təsiri nəticəsində, ilin böyük bir hissəsi qüvvədə qalan səyahət/hərəkətetmə məhdudiyyətləri nəzərə alınmaqla, ailə və icma üzvləri ilə üzbəüz təmasın azalması məlumatın toplanılması, məlumatlandırma (maarifləndirmə) tədbirlərinin aparılması və bacarıqların təkmilləşdirilməsi sahələrində rəqəmsal yanaşmaların tətbiqinə rəvac verib. Lakin, bu durum əhalinin ən az təminatlı təbəqələrinin üzləşdiyi rəqəmsal uçurum səbəbindən ictimai iştirakçılığın miqyasını məhdudlaşdırıb. Karantin məhdudiyyətləri və münaqişənin alovlanması hökumət qurumları və inkişaf naminə tərəfdaşların da fəaliyyət miqyasını daraldıb. Hökumətin qısamüddətli tədbirləri prioritet etməsi, BMT qurumları ilə uzunmüddətli strateji planlaşdırma və fəaliyyət proqramlarının formalaşdırılması istiqamətində yubanmalara səbəb olub. Digər çətinlik, vətəndaş cəmiyyəti təşkilatlarının müstəqil fəaliyyətə davam etmək üçün maliyyə təminatının və sahəvi (spesifik) təcrübənin əldə edilməsi baxımından işgüzarlıq imkanlarının azalması ilə bağlı idi.



# **BÖLMƏ 3:** BMT BİRLİKDƏ DAHA SƏMƏRƏLİ VƏ DAHA EFFEKTİV İŞLƏYİR

### *Planlama*

2020-ci ildə növbəti beş illik dövrlə bağlı əsas diqqət Azərbaycan Respublikasının Hökuməti ilə əməkdaşlığa dair yeni çərçivə sənədi, BMT və Azərbaycan Respublikası arasında 2021-2025-ci illəri əhatə edən Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədinin (UNSDCF) işlənib hazrlanması və yekunlaşdırılmasına verilib. Ölkə üzrə Ümumi Təhlilin (ÖÜT), həmçinin BMT və Azərbaycan arasında Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədinin qiymətləndirilməsinin ilkin nəticələri və bu sənədlərdə verilən tövsiyələr müxtəlif sahələri təmsil edən maraqlı tərəflərlə birlikdə prioritetlərin müəyyənləşdirilməsinə dair yanvar ayında baş tutmuş müzakirələrin bünövrəsini qoyub. ÖÜT, diqqətdən kənarda qalmış şəxsləri, o cümlədən heç bir diqqət görməyənləri, həmçinin qeyri-bərabərlik, təcrid edilmə hallarının və gender əsaslı ayrı-seçkilik daxil olmaqla ümumiyyətlə ayrı-seçkiliyin başlıca səbəblərini ayırd etmək məqsədilə inklüziv, çoxsaylı maraq dairələrinin iştirakı vasitəsilə ərsəyə gətirilib. Elmi dairələr və özəl sektoru təmsil edən şəxslərlə birlikdə qadınları, uşaqları, sağlamlıq imkanları məhdud şəxsləri, məcburi köçkünləri, miqrantları, milli, dini və cinsi azlıqları təmsil edən müxtəlif vətəndaş cəmiyyəti təşkilatları (VCT) tərəfindən ehtiyaclar müəyyənləşdirilib və çoxsaylı maraq dairələrinin iştirakı ilə keçirilmiş UNSDCF-in tərtibatı seminarında Hökumətlə baş tutmuş konstruktiv dialoq çərçivəsində UNSDCF-in yekun və ilkin nəticələri bu istiqamətdə işlənib hazırlanıb. Bu proses kollektiv səylərin, potensialın və resursların yönləndirilməsi üçün əsas strateji prioritetləri və əlaqədar inkişaf sahələrini müəyyənləşdirməyə kömək edib. Yeni çərçivənin əsasını dayanıqlı inkişaf məqsədləri (DİM), təxirəsalınmaz qaydada icra edilməli "heç kəsi kənarda qoymamaq" prinsipi, inkişafla bağlı tətbiq edilən, insan amilinə yönəlmiş və hüquqlara əsaslanan yanaşma təşkil edir. Gender bərabərliyi və məlumatların toplanması (data) bütün sənəddə əhatə olunmaqla yanaşı iki xüsusi nəticə sahəsi olaraq da seçilib. UNSDCF, COVID-19 pandemiyası və Qarabağ münaqişəsinin yaratdığı ağır sosial-iqtisadi sarsıntılardan sonra uzunmüddətli müqavimət gücü, bərpa və quruculuq təsəvvürü üzərində qurulub. Bu çərçivə sənədində regional aspektə və ölkənin BMT sazişləri çərçivəsində üzərində götürdüyü beynəlxalq öhdəliklərə verilən diqqət onu əvvəlki tərəfdaşlıq çərçivəsi sənədindən fərqləndirir. İlin sonunda UNCT, COVID-19 pandemiyasının DİM-lərin yerinə yetirilməsi istiqamətində görülən işlərə təsirinin təhlilini aparmaqla, ÖÜT-ün BMT-nin səciyyəvi analitik töhfəsi qismində qalmasını, həmçinin Əməkdaşlıq Çərçivəsinin ölkədə dəyişən vəziyyətlə uzlaşmasını təmin edib.

Sənədin Nəticələr Maliyyələşdirmə Çərçivələri Mexanizmi daxil olmaqla digər əsas hissələri tamamlanıb. Konfiqurasiya prosesi çərçivəsində UNCT Əməkdaşlıq Çərçivəsində razılaşdırılmış prioritetlərə və ölkə kontekstində mövcud olan ehtiyaclara cavab tədbirlərini həyata keçirmək üçün zəruri potensialın cəlb edilməsinə müvəffəq olub. Altı yeni BMT qurumu – BMT-nin Fəlakət Risklərinin Azaldılması İdarəsi (UNDRR), UNESKO, UN Habitat (BMT-nin Məskunlaşma Proqramı), UNOPS (BMT-nin Layihə Xidmətləri İdarəsi), BMT Könüllüləri və UN Women – yeni Əməkdaşlıq Çərçivəsi sənədini imzalayıb.

UNCT, COVID-19 pandemiyası səbəbindən UNAPF sənədi üzrə 2020-ci ili əhatə edən Birgə İş Planlarına salınmış fəaliyyətləri yenidən hazırlamaq və İllik İcmalı virtual şəkildə həyata keçirməli olub. BMT-nin ölkə səviyyəsində BMT sistemi fəaliyyətlərinin izlənilməsi üçün planlaşdırma, monitorinq və hesabatların verilməsi üzrə internet əsaslı platforması olan UN INFO platforması Azərbaycan üzrə istifadəyə verilib. Əvvəlki ilin əsas nəticələrini özündə əks etdirən 2019-cu il üzrə İşlərin Gedişatına dair İllik Hesabat işlənib hazırlanıb və dərc edilib.



UNSDCF-in Strateji Prioritetləşdirmə Seminarında Hökumət, özəl sektor, vətəndaş cəmiyyəti və medianın yüksək səviyyəli nümayəndələri BMT ilə Hökumət arasında növbəti beş illik müddət üçün əməkdaşlıq prioritetlərini müəyyən etmək məqsədilə bir araya gəlib.

***Qiymətləndirmə nəticələri və rəhbərliyin cavab tədbirləri***

UNCT 2019-cu ildə UNAPF üzrə müstəqil qiymətləndirmə həyata keçirib. Qiymətləndirmə nəticəsində aşkar edilmiş faktların sayı 21, gəlinən nəticələrin sayı 11, öyrənilmiş dərslərin sayı 6, tövsiyələrin sayı isə 12 olub və onların hamısı UNCT və Azərbaycan Hökuməti tərəfindən qəbul edilib. Qiymətləndirmə çərçivəsində təqdim edilən tövsiyələri yerinə yetirmək üçün UNCT icra edilməli 58 tədbirdən ibarət rəhbərliyin cavab sənədini hazırlayıb. İllik İcmal prosesi çərçivəsində, UNCT Hökumətlə birgə öhdəlik götürdüyü əsas tədbirlər barədə hesabat verib: ümumilikdə 58 əsas tədbirdən 26-na nail olunub, 30-nun icrası davam edir, 1-nə qismən nail olunub, 1-i isə tətbiq olunmur. Həm qiymətləndirmə, həm də müvafiq rəhbərliyin cavab sənədi BMT-nin Azərbaycandakı Nümayəndəliyinin veb-saytında dərc olunub. Əsas tədbirlərin icrası baxımından əldə olunan illik irəliləyiş barədə yenilənmiş məlumatlar da veb-sayt vasitəsilə əldə edilə bilər.

***Tərəfdaşlıqlar və 2030-cu il Gündəliyi üçün Maliyyə Təminatı***

2020-ci ildə milli inkişaf məqsədləri və onların DİM gündəliyinə uzlaşdırılmasına ayrılan resursları optimallaşdırmaq üçün Azərbaycanda fəalyyət göstərən BMT qurumları müvafiq fəaliyyət Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası ilə bir araya gətirib. BMT-nin DİM Fondunun maliyyələşdirdiyi yeni "Gələcəyin maliyyələşdirilməsi – Vahid Milli Maliyyə Təminatı Çərçivəsi (INFF) vasitəsilə büdcənin uzlaşdırılması, planlaşdırma və maliyyə vəsaitinin səfərbər edilməsi" təşəbbüsü gender bərabərliyinə, mikro, kiçik və orta biznes müəsisələrinə (MKOB) və sosial müəssisələrə xüsusi diqqət yetirməklə, dövlət və qeyri-dövlət təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi üçün dövlət-özəl sektor tərəfdaşlığı (PPP) platformasından istifadə edərək, faktlara söykənən siyasətin hazırlanması, iqlim dəyişmələri mövzusunda vahid maliyyə təminatı mexanizminin yaradılması, iqlim sahəsində tədbirlərin maliyyələşdirilməsi və

texnologiyaların ötürülməsi nöqteyi-nəzərindən milli potensialın gücləndirilməsi məqsədini daşıyır.

Bundan əlavə, BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin dəstəyi ilə UNCT, ilkin nəticələri 2021-2025-ci illər üzrə UNSDCF sənədinin tərtib və icra edilməsində UNCT-nin Azərbaycanda VCT, özəl sektor və elmi dairələrlə apardığı birgə işi formalaşdırmış “Azərbaycanda milli inkişafın planlaşdırılması və DİM-lərin kütləviləşdirilməsi sahəsində müxtəlif sahələri təmsil edən maraqlı tərəflər amilinin gücləndirilməsi” mövzusunda qiymətləndirmə hesabatını hazırlayıb.

DİM-lər üzrə milli monitorinq və hesabatvermə sistemlərinin təkmilləşdirilməsi üzrə əməkdaşlığı gücləndirmək üçün 2020-ci ilin mart ayında UNCT və Dövlət Statistika Komitəsi arasında birgə işçi qrupu (BİQ) yaradılıb. BİQ-in fəaliyyəti işgüzarlıq sahəsində çatışmazlıqların və vəziyyətin təkmilləşdirilməsi üçün konkret tədbirlərin müəyyənləşdirilməsinə kömək edib və mövcud məlumatların və mexanizmlərin dərindən qiymətləndirilməsi ilə başlayıb. İşçi qrup, məlumatların dezaqreqasiyasını qarşıda duran çətinliklərdən biri kimi qəbul edərək ən həssas qruplar üzrə məlumata olan tələbatı qarşılamaq üçün BMT təşkilatlarının aparıcı ekspertlərini bilik, praktika və təcrübələrin mübadiləsini aparmaq məqsədilə noyabr ayında iki günlük seminarda[13] bir yerə toplayıb. 2020-ci ilin sonunda BİQ, DİM məlumatlarının dezaqreqasiyası üzərində işləyən statistika mütəxəssisləri və qərarverən şəxslər üçün texniki təlimatlar toplusunu təqdim etməklə yeni bir vəsait hazırlayıb.

UNCT, VCT-lərin COVID-19 pandemiyası ilə bağlı cavab tədbirlərinə verdikləri töhfələrin Hökumətin, UNCT və inkişaf məsələləri üzrə tərəfdaşların müvafiq cavab tədbirləri planlarına inteqrasiyasını təmin etmək üçün il ərzində müxtəlif VCT qrupları, inkişaf məsələləri üzrə tərəfdaşlar və Hökumətlə müntəzəm qaydada əlaqələndirmə iclaslarını keçirib. İki xüsusi sessiya COVID-19 pandemiyası dövründə məişət zorakılığı hallarının artması və pandemiyanın Azərbaycanda qadın və kişilərin həyatına təsiri ilə bağlı Sürətli Gender Qiymətləndirməsinin nəticələrinə həsr edilib.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin alovlanması zamanı (27 sentyabr – 9 noyabr 2020-ci il) UNCT effektiv cavab tədbirləri və ünvanlı yardım göstərmək üçün müvafiq məlumatların şəffaflığı və sərbəst yayılmasını təmin etmək məqsədilə VCT-lərlə və Hökumətlə sıx əməkdaşlıq edib. BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsinin (OCHA) mərkəzi məlumat bazasında Azərbaycan üzrə Humanitar Məlumatların Mübadiləsi Paneli bütün maraqlı tərəflər (Hökumət, VCT-lər, BMT və inkişaf məsələləri üzrə digər tərəfdaşlar) arasında əlaqələndirməni və əməkdaşlığı təmin etmək üçün məlumatla zənginləşdirilmiş və Azərbaycanda fəaliyyət göstərən VCT-lər üçün həyata keçirdikləri humanitar işlər barədə ictimaiyyəti məlumatlandırmaq və “Kim harada nə edir” hesabatvermə yanaşması vasitəsilə yerində müəyyənləşdirilmiş ehtiyaclar barədə BMT, inkişaf məsələləri üzrə tərəfdaşlar və Hökuməti məlumatlandırmaq üçün faydalı alətə çevrilib.

COVID-19 pandemiyası dövründə tətbiq edilmiş məhdudiyyətlərə baxmayaraq, UNCT BMT-nin Qlobal Razılaşmasını (Global Compact) və Qadınların Qadınların Səlahiyyətləndirilməsi Prinsiplərini (QGP) təbliğ etməklə özəl sektorla əməkdaşlığa davam edib, nəticədə, əlavə üç şirkət – “A-level Education Group”, “Deloitte &Touche” MMC və “SOCAR” AQŞ 2020-ci ildə bu prinsipləri qəbul edib.

[13] Seminarda məlumatların dezaqreqasiyasının, o cümlədən həmin bölgünün əhəmiyyəti, təxirəsalınmaz qaydada icra edilməli “heç kəsi kənarda qoymamaq” prinsipi digər ölkələrin təcrübəsi və DİM məlumatlarının dezaqreqasiyasına dair innovativ məlumat mənbələri və metodlarının tətbiqinə dair 5 sessiyadan ibarət 18 təqdimat nümayiş etdirilib. Təqdimatları hökumətin (Dövlət Statistika Komitəsinin, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının), BMT-nin regional komissiyalarının (Avropa üzrə İqtisadi Komissiyanın, Asiya və Sakit Okean bölgəsi üzrə İqtisadi Komissiyanın), həmçinin BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin, BMTİP-in, UNİCEF-in, UN Women-in, FAO-nun, BMqT-nin, ÜST-ün), digər ölkələrin (Birləşmiş Krallığın, Qırğızıstanın, İsveçin) statistika idarələrinin, beynəlxalq maliyyə təsisatlarının (AİB) nümayəndələri ediblər.




Azərbaycan üzrə Humanitar Məlumatların Mübadiləsi Paneli

### *Sülh və inkişaf gündəliyi*

Pandemiya, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafında hərbi əməliyyatların başlaması səbəbindən dövlətlərarası əməkdaşlığın məhdud çərçivədə qalmasına baxmayaraq, UNCT, milli tərəfdaşlar və Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlarla BMT-nin sülh və təhlükəsizlik platformasının təminatçısı xüsusiyyətinin gücləndirilməsinə töhfə verib və birgə fəaliyyət səylərinə xüsusi diqqət yetirib. BMT-nin Sülh və İnkişaf komandası və OCHA-nın dəstəyi ilə UNCT, COVID-19 pandemiyası və münaqişənin kəskinləşməsi zamanı erkən xəbərdarlıq sistemlərini və fövqəladə hallarda tədbirlər planlarını əməli vasitə kimi tətbiq edib. Hər iki böhran vəziyyəti ilə bağlı gündəlik hesabatlar hazırlanıb, o cümlədən, vəziyyətin gedişatına dair proqnozlar və gələcək vəziyyətin planlaşdırılması həyata keçirilib. Bu, həm ölkə, həm də baş ofis səviyyəsində BMT fəaliyyət sisteminin sürətlə dəyişən mühitdə yerini müəyyənləşdirməyə, eyni zamanda, BMT qurumlarına böhran vəziyyətləri ilə bağlı humanitar cavab tədbirlərini planlaşdırmağa və əlaqələndirməyə yardım edib.

Sülh və İnkişaf komandası tərəfindən Cənub Qafqaz coğrafiyasında sosial medianın (şəbəkələrin) monitorinqi, məlumatların toplanılması və ictimai etirazların təhlili BMT fəaliyyət proqramının dolğun qaydada hazırlanması və prioritetləşdirməsi istiqamətində kömək edib. UNCT, həmçinin Qadınlar, Sülh və Təhlükəsizlik gündəliyi mövzusunda Hökumət və vətəndaş cəmiyyəti ilə dialoqu yeni, daha təkmil şəklə salmaqla Milli Fəaliyyət Planının qəbul edilməsi istiqamətində təbliğat aparıb.

### *Əməliyyatlar*

Əməliyyatları İdarəetmə Heyəti ümumi xidmətləri həmahəng və səmərəli şəklə salmaq üçün yeni Əməkdaşlıq Çərçivəsinə uyğun olaraq yeni Biznes Əməliyyatları Strategiyasına (BOS) keçid fəaliyyətini sürətləndirib. Birgə xidmətlərə keçidin xərc-mənfəət təhlilinin aparılması birgə planlaşdırılma mexanizminin hazırlanmasında istifadə olunacaq. Yeni BOS-a keçidin 2021-ci ilin birinci rübündə tamamlanacağı planlaşdırılır.

***Normativ gündəlik***

UNCT-nin insan hüquqları, gender məsələləri və gənclər sahəsində fəaliyyəti əvvəlki bölmələrdə ətraflı şəkildə təsvir edilib. 2020-ci ildə UNCT digər normativ gündəlik məsələlərinə, xüsusilə də BMT-nin Sağlamlıq İmkanları Məhdud Şəxslərin Cəmiyyətə Qovuşması Strategiyası və Cinsi İstismar və Zorakılıq Hallarının Qarşısının Alınması (PSEA) tədbirlərinə də diqqət ayırıb. UNCT bu gündəliklərin qurumlar və ölkə səviyyəsində icrasının əlaqələndirilməsi üçün aidiyyəti olan hər bir qurumda məsul şəxs təyin edib, həmçinin Sağlamlıq İmkanları Məhdud Şəxslərin Cəmiyyətə Qovuşması Strategiyası və PSEA tədbirlərinin əsas göstəriciləri və tələblərinə cavab verən fəaliyyət planlarını işləyib hazırlayaraq, heyətə PSEA mövzusunda müntəzəm təlimlərin keçirilməsini təşkil edib.




BMT-nin Azərbaycandakı Kommunikasiya Qrupu təşkilatın 75 illiyi ilə bağlı başladılmış qlobal dialoqu fəal şəkildə təşviq edib.

***Kommunikasiya***

BMT-nin 75-ci il dönümünü qeyd etmək üçün təşkilatın başladığı qlobal dialoqu Azərbaycanda BMT-nin Kommunikasiya Qrupu (UNCG) ərsəyə gətirib. Hökumət, vətəndaş cəmiyyəti, elmi dairələr və özəl sektorla toplam 2000-ə yaxın iştirakçının qatıldığı 25 onlayn dialoq aparılıb. Bu dialoqlarda DİM-lərə nail olmaq üçün qarşıda duran aktual çətinliklər (iqlim böhranı münaqişələr, qeyri-bərabərliklər, məişət zorakılığı və texnologiyalarda sürətlə baş verən dəyişikliklər) müzakirə edilib.

Sosial media platformaları, ictimai yerlər və yerli mobil operatorlar vasitəsilə təbliğ edilmiş "BMT-75" bir dəqiqəlik sorğuda təxminən 18 min azərbaycanlı iştirak edərək öz fikrini bildirib.

Azərbaycanda COVID-19 pandemiyası başladıqdan sonra UNCG Böhran dövründə Kommunikasiya Qrupu (CCG) kimi fəaliyyət göstərməklə risklərin bildirilməsi strategiyasının icrasında fəal rol oynayıb.

Müvafiq hökumət qurumları, vətəndaş cəmiyyəti təşkilatları, KİV-lər və nüfuz sahibi olan şəxslərlə tərəfdaşlıq çərçivəsində CCG önləyici ismarışların yayılmasını təşviq etmiş və “Evdə qal, həyatları xilas et”, “Təmiz əllər”, “Evdə həyat var” və s. kimi bir sıra kommunikasiya kampaniyalarını həyata keçirib. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafında baş vermiş müharibə zamanı UNCG BMT Baş katibinin və qurumların rəhbərlərinin bəyanatlarını (rəsmi açıqlamalarını) yerli KİV-lər vasitəsilə yaymış, ictimaiyyəti münaqişədən zərər çəkmiş ərazilərdə BMT-nin humanitar yardım fəaliyyəti barədə məlumatlandırıb.

“On il sürəcək bərpa” qlobal şüara uyğun olaraq, BMT-nin Azərbaycan Nümayəndəliyi DİM mövzusunda ismarışlarını DİM-lərin “daha sağlam quruculuq işləri aparmaq və hər kəs üçün dayanıqlı, davamlı və firavan gələcək qurmaq” naminə hökumət strategiyalarının başlıca hissəsinə çevrilməli olduğunu vurğulamaqla hökumət rəsmiləri, KİV-lər, vətəndaş cəmiyyəti və digər hədəf auditoriyalarla apardığı kommunikasiyaya daxil edib. Üstəlik, DİM mövzusunda ismarışlar sosial media kampaniyalarında, həmçinin Ümumdünya Ekologiya Günü, gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyası, İnsan Hüquqları Günü və digər mühim tarixlərin və tədbirlərin qeyd edilməsinə həsr edilmiş 40-dan çox multimedia məhsullarında vurğulanıb. 2020-ci ildə BMT-nin Azərbaycandakı nümayəndəliyinin yeni vebsaytı ərsəyə gətirilib.



















BMT-nin COVID-19 mövzusunda risklərin bildirilməsinə ilə bağlı ismarışlara dair bəzi nümunələr

***2021-ci ildə görüləcək işlər***

2021-ci ildə UNCT-nin diqqət göstərəcəyi əsas məsələ inklüziv idarəetmə və idarəçilik strukturlarını (Birgə İstiqamətləndirici Komitə, Nəticələr üzrə Qruplar və Tematik Qruplar) təsis etmək və Birgə İş Planları işləyib hazırlamaqla yeni Əməkdaşlıq Çərçivəsinin həyata keçirilməsi olacaq. Bu da öz növbəsində hədəf əhali qrupları ilə münasibətdə daha geniş miqyasda sahiblik və cavabdehlik üçün zəmin yaradacaq. UNSDCF-in məlumatların toplanması komponentinə, o cümlədən DİM mövzusunda məlumatların təhlili və vizualizasiyası məqsədilə UN INFO platformasında aktiv hesabatvermə təbliğ edilməklə UNCT-nin Dövlət Statistika Komitəsi ilə daha sıx əməkdaşlığına xüsusi diqqət veriləcək. Ölkədə inkişaf kontekstində baş verən dəyişikliklərə, o cümlədən COVID-19 pandemiyasının və Qarabağ münaqişəsinin həssas qruplara təsirinə dair məlumatları əldə etmək və əks etdirmək üçün əsas alət kimi ÖÜT-dən istifadə ediləcək.

Bu, faktlara əsaslanan siyasətlərin tərtibatı üçün milli potensialın gücləndirilməsi, daha səmərəli ünvanlı müdaxilə tədbirlərinin təmin edilməsi, xüsusilə, fəaliyyətlərdə nəzərə alınmamış qrupların nəzərdən qaçırılmaması nöqteyi-nəzərindən UNCT-yə şərait yaradacaq. UNCT, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər sənədini həyata keçirmək və onu xərclər əks edilməklə fəaliyyət planına çevirmək həmçinin 2017-ci və 2019-cu illərdə təqdim edilmiş könüllü milli hesabatların (KMH) davamı olaraq məlumatlara əsaslanan növbəti KMH-i 2021-ci ildə keçiriləcək Yüksək Səviyyəli Siyasi Foruma təqdim etmək istiqamətində Hökumətlə sıx işləyəcək.

COVID-19 pandemiyası ilə əlaqədar sosial-iqtisadi cavab tədbirlərinin və İkinci Qarabağ müharibəsindən sonra aparılan bərpa tədbirlərinin dəstəklənməsi, zərər çəkmiş əhali təbəqələrinin rifahının yenidən qurulmasına xüsusi diqqət yetirilməklə əsas hədəf məsələləri kimi qalacaq. COVID-19 pandemiyası ilə əlaqədar cavab tədbirlərinin həyata keçirmək, xüsusilə peyvəndlərin vurulması miqyasını artırmaq və bu işin ən həssas qrupları daha geniş şəkildə əhatə etməsi məqsədilə Hökumət və digər tərəfdaşlara əlavə dəstək göstəriləcək.

UNCT həmçinin BMT işçi heyətinin və onların ailə üzvlərinin sağlamlığının və təhlükəsizliyinin qorunmasını və işçi heyətin təhlükəsiz şəkildə işləməyə davam etməsini, o cümlədən peyvəndlərə və digər müvafiq tədbirlərə çıxışlarını təmin edəcək. UNCT, Avropa İttifaqı və Dünya Bankı ilə birgə fəaliyyət çərçivəsində Qarabağ münaqişəsi ilə bağlı Bərpa və Sülh Quruculuğunun Qiymətləndirilməsini (BSQQ) həyata keçirəcək və bunun əsasında yenidənqurma, münaqişədən zərər çəkmiş əhalinin cəmiyyətə təkrar inteqrasiyası və normal həyata qayıtmasına dair hüquqlara əsaslanan yanaşmanın tətbiqinə yönəlmiş müfəssəl bərpa planının tərtib edilməsində Hökumətə dəstək verəcək. UNCT erkən xəbərdarlıq sisteminə diqqət yetirməklə münaqişə ilə əlaqədar müntəzəm qaydada birgə təhlillərin aparılmasına və hesabatların hazırlanmasına və gəncləri ön plana çəkməklə sülh quruculuğu mövzusunda vətəndaş cəmiyyəti ilə dialoqun genişləndirilməsinə davam edəcək.

UNCT normativ gündəliyin tələblərinə (o cümlədən, gender bərabərliyi, insan hüquqları, gənclər, PSEA tədbirləri və sağlamlıq imkanları məhdud şəxslərin inklüzivliyi ilə bağlı tələblərə) davamlı qaydada əməletmə üçün şərait yaradacaq. Qurum ölkənin insan hüquqları ilə bağlı üzərinə götürdüyü öhdəliklərin icrasına dair monitorinq aparmaq və hesabat vermək üçün milli tərəfdaşlarda müvafiq bilik və bacarıqları formalaşdıracaq və işçi heyətə PSEA mövzusunda aylıq təlimlər keçməyə davam edəcək. BMT-nin Rezident Əlaqələndiricisinin Ofisində gender məsələləri üzrə əlavə müşavir vəzifəsi gender bərabərliyi məsələlərini fəaliyyət proqramının hazırlanmasına və iş münasibətlərinə tam inteqrasiya etməkdə UNCT-yə kömək edəcək. UNCT, həmçinin BMT-nin Sağlamlıq Məhdudiyyətləri Strategiyasını həyata keçirəcək və strateji planlaşdırma, inklüzivlik, fəaliyyət proqramının hazırlanması və təsisatdaxili münasibətlər sahələrində görülən işlərin gedişatını izləmək üçün Sağlamlıq Məhdudiyyətləri üzrə Tematik Qrupun rüblük iclaslarını təşkil edəcək. Əlavə olaraq, UNCT yeni nəsil Biznes Əməliyyatları Strategiyasına (BƏS) keçidin tamamlanmasını və yeni BƏS tələblərini əks etdirən ortaq iş mühiti üçün yeni məkanın müəyyənləşdirilməsinə diqqət mərkəzində saxlayacaq. BMT-nin Rezident Əlaqələndiricisinin Ofisində çalışan gender məsələləri üzrə müşavir yeni BƏS-in daha effektiv və nizamlı qaydada həyata keçirilməsini sürətləndirməkdə UNCT-yə dəstək verəcək. Üstəlik, UNCT UNSDCF-ə uyğun olaraq yeni Kommunikasiya Strategiyasını tətbiq edəcək və həyata keçirəcək və BMT proqramlarında "Fəaliyyət Onilliyi"nin mahiyyətini təbliğ etməyə davam edəcək.

2021-ci ildə UNCT UNSDCF-in icrasına dəstək və maliyyə təminatı ehtiyaclarını qarşılamaq məqsədilə yeni strateji tərəfdaşlıqlar quracaq. Diqqətdən kənarda qalmış və təcrid edilmiş əhali qruplarına diqqət yetirməklə Resursları Səfərbəretmə Strategiyası tətbiq ediləcək, DİM-lərlə bağlı maliyyə təminatı Hökumətin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi üzrə tədbirlərin BMT tərəfindən dəstəklənməsinə rəvac verəcək, bütün fəaliyyət sahələrində gənclər və nüfuz sahibi olan şəxslərlə birgə iş aparmaqla DİM-lərin ünvanlı təbliğatı həyata keçiriləcək.

Növbəti il üçün prioritetlər arasında Hökumət və inkişaf naminə tərəfdaşlarla birlikdə DİM Fondunun yaradılması ilə bağlı təbliğat və təşviqat da yer tutur. UNCT, inkişaf naminə tərəfdaşlar platformasını daha mərkəzləşmiş və təkmil iştirak və əlaqələndirmə məqsədilə restrukturizasiya edəcək, UNSDCF-in prioritetlərinə, xüsusilə rəqəmsal transformasiya ilə bağlı prioritetlərə rəvac vermək üçün Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA) və digər gənclər təşkilatları ilə birlikdə müntəzəm əlaqələndirmə platformasını yaradacaq.

# QOŞMALAR

## QOŞMA 1: MALİYYƏ İCMALI

| BMT QURUMLARI | TƏLƏB OLUNAN VƏSAİT (ABŞ DOLLARI) | MÖVCUD VƏSAİT (ABŞ DOLLARI) | TOPLANMALI OLAN VƏSAİT (ABŞ DOLLARI) | XƏRCLƏR |
|---|---|---|---|---|
| BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) | 4,780,526 | 4,616,838 | 163,688 | 2,221,000 |
| Beynəlxalq Əmək Təşkilatı (BƏT) | 45,000 | 45,000 | 0 | 22,194 |
| Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) | 1,119,079 | 1,119,079 | 0 | 611,896 |
| BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMT İHAK) | 45,000 | 45,000 | 0 | 65,000 |
| BMT-nin İnkişaf Proqramı (BMTİP) | 15,037,731 | 15,037,731 | 0 | 12,537,653 |
| BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) | 366,000 | 366,000 | 0 | 34,000 |
| BMT-nin Əhali Fondu (UNFPA) | 911,090 | 851,090 | 60,000 | 850,000 |
| BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) | 1,562,747 | 1,527,073 | 35,674 | 3,232,527 |
| BMT-nin Uşaq Fondu (UNİCEF) | 4,067,777 | 3,562,772 | 505,005 | 3,951,025 |
| Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) | 1,932,242 | 1,902,242 | 30,000 | 3,626,000 |
| Cəmi | 29,867,192 | 29,072,825 | 794,367 | 27,151,295 |

| STRATEJİ PRİROİTET SAHƏ/ NƏTİCƏLƏR | TƏLƏB OLUNAN VƏSAİT (ABŞ DOLLARI) | MÖVCUD VƏSAİT (ABŞ DOLLARI) | TOPLANMALI OLAN VƏSAİT (ABŞ DOLLARI) | XƏRCLƏR |
|---|---|---|---|---|
| Birinci Strateji Priroitet Sahə - Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi | 10,752,487 | 10,588,799 | 163,687.62 | 5,954,280 |
| Nəticə 1.1: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmənin dərinləşməsi, dayanıqlı artım səviyyəsinin yüksəlməsi və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerlərinin yaradılması. | 10,752,487 | 10,588,799 | 163,687.62 | 5,954,280 |
| İkinci Strateji Priroitet Sahə - İnstitusional potensialın gücləndirilməsi, səmərəli dövlət və sosial xidmətlər | 14,052,018 | 13,451,339 | 600,679 | 15,039,675 |
| Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanın şəffaf,sübutlara əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması | 4,424,024 | 4,357,575 | 66,449 | 6,203,771 |
| Nəticə 2.2: 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi | 1,224,574 | 1,211,974 | 12,600 | 899,623 |
| Nəticə 2.3: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi | 8,403,420 | 7,881,790 | 521,630 | 7,936,281 |
| Üçüncü Strateji Priroitet Sahə - Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, həmçinin təbii və insan fəaliyyəti nəticəsində baş verən fəlakətlərə qarşı dayanıqlılığın artırılması | 5,062,686 | 5,032,686 | 30,000 | 6,157,340 |
| Nəticə 3.1: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi | 5,062,686 | 5,032,686 | 30,000 | 6,157,340 |
| Cəmi | 29,867,192 | 29,072,825 | 794,367 | 27,151,295 |






# QOŞMA 2: BMT QURUMLARI VƏ TƏRƏFDAŞLARI

| BMT QURUMLARI |
|---|
| BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) |
| Beynəlxalq Əmək Təşkilatı (BƏT) |
| Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) |
| BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMT İHAK) |
| BMT-nin İnkişaf Proqramı (BMTİP) |
| BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) |
| BMT-nin Əhali Fondu (UNFPA) |
| BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) |
| BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) |
| BMT-nin Uşaq Fondu (UNİCEF) |
| BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu (UN Women) |
| Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) |

| MALİYYƏ TƏRƏFDAŞLARI |
|---|
| Azərbaycan Hökuməti |
| Avropa İttifaqı |
| Avropa Komissiyası (AK) |
| Qlobal Ekologiya Fondu |
| Niderland Hökuməti |
| Yaşıl İqlim Fondu |
| Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) |
| İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (SDC) |
| ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) |

**2020-Cİ İL ÜZRƏ İCRAÇI TƏRƏFDAŞLAR**

| HÖKUMƏT | QHT/VCT | ELMİ/TƏHSİL DAİRƏLƏRİ | ÖZƏL SEKTOR |
|---|---|---|---|
| Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA)<br>Aqrar Xidmətlər Agentliyi (AXA)<br>"Ailə Biznesinə Asan Dəstək" (ABAD) publik hüquqi şəxs<br>Qida Təhlükəsizliyi Agentliyi (AQTA)<br>Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA)<br>Azərbaycan Milli Paralimpiya Komitəsi<br>Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası<br>Azərbaycan Respublikasının Gənclər Fondu (AzGF)<br>"İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsi<br>Nazirlər Kabineti<br>Yerli icra hakimiyyətləri (YİH)<br>Beynəlxalq Mama-Ginekoloqlar Federasiyası<br>Səhiyyə Nazirliyi<br>Ədliyyə Akademiyası<br>Kənd Təsərrüfatı Nazirliyi<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi<br>İqtisadiyyat Nazirliyi<br>Təhsil Nazirliyi<br>Fövqəladə Hallar Nazirliyi<br>Energetika Nazirliyi<br>Xarici İşlər Nazirliyi (XİN)<br>Səhiyyə Nazirliyi<br>Daxili İşlər Nazirliyi (DİN)<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi<br>Gənclər və İdman Nazirliyi<br>Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası<br>Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası<br>Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili<br>Mili Məclis<br>İctimai Səhiyyə və İslahatlar Mərkəzi<br>İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi<br>Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN)<br>Dövlət Sərhəd Xidməti (DSX)<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi<br>Dövlət Gömrük Komitəsi (DGK)<br>Mənzil İnşaatı Dövlət Agentliyi<br>Dövlət Miqrasiya Xidməti<br>Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)<br>Dövlət Təhlükəsizlik Xidməti (DTX)<br>Dövlət Statistika Komitəsi (DSK)<br>Dövlət Turizm Agentliyi (DTA)<br>Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA)<br>Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB)<br>Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA)<br>Azərbaycan Respublikası Vəkillər Kollegiyası<br>Azərbaycan Arıçılar Assosiasiyası<br>"Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyi<br>"Azərbaycan Milli İnkişaf Layihəsi" İctimai Birliyi<br>Azərbaycan Fiziki Terapiya Assosiasiyası<br>Azərbaycan Kənd Qadınları Assosiasiyası<br>"BUTA" Humanitar Uşaq Fondu<br>"Konstitusiya" Araşdırmalar Fondu<br>"DAN Beynəlmiləlçi Gənclər" İctimai Birliyi<br>"Əlilliyə Erkən Yardım Portec Şəbəkəsi" İctimai Birliyi<br>"Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" İctimai Birliyi (IDEA)<br>Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF)<br>Azərbaycan Gənclərinin Nailiyyəti (JAA)<br>Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA)<br>Azərbaycan Milli Paralimpiya Komitəsi<br>"Regional inkişaf üzrə maarifləndirmə" İctimai Birliyi<br>"Regional İnkişaf" İctimai Birliyi<br>"Regional Gender Mərkəzi" İctimai Birliyi<br>Qafqaz üzrə Regional Ekoloji Mərkəz (RECC)<br>Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsi<br>"Gənclərin töhfəsi" İctimai Bilriyi<br>Azərbaycan Respublikası Əlil Təşkilatları Ittifaqı (ƏTİ) | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası<br>Aqrar Tədqiqatlar Mərkəzi<br>Azərbaycan Dövlət Aqrar Universiteti<br>Azərbaycan Turizm və Menecment Universiteti<br>Bakı Dövlət Universiteti<br>Əkinçilik Elmi-Tədqiqat İnstitutu | "Azərsun Holdinq" şirkəti<br>"Equinor Apsheron AS" şirkəti |

TheUNAzerbaijan

@UNinAzerbaijan

un_azerbaijan

UNinAzerbaijan

BMT-nin 50 illiyi küçəsi, 3
AZ 1001 Bakı, Azərbaycan
Tel.: (+99412) 498 98 88
www.azerbaijan.un.org